www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet 26-29 iyul 2014-cü il Şənbə № 189 (5898) Qiymәti 40 qәpik

**Xəbər**

## Qarabağ veteranı özünü PA qarşısında yandırmaq istədi

yazısı səh.3-də

**Gündəm**

### Bakıda İsrail səfirliyi qarşısında aksiya keçirildi



Polisin dağıtdığı aksiyada saxlanılanlar oldu; "Qüds və Qarabağ eyni dərd" adlı konfransın iştirakçıları isə cəmiyyəti yəhudi dövlətini boykota çağırdılar

yazısı səh.8-də

### Prezidentin işdən çıxardığı məmur oğlunun məhkəməsi başlayır

yazısı səh.12-də

*İsgəndər Həmidov:*

### "Ermənilərdən qulaqlayıb gətirmək, bizim girovlarla dəyişmək olar"

yazısı səh.11-də

### "Sevil" MTK-nın rəhbərinin həbsi rəsmən təsdiqləndi

yazısı səh.12-də

### Aparıcı müxalifət partiyaları seçkidə iştirak etməyə bilər

yazısı səh.8-də

### Müsavat həbs olunmuş qardaşlarla bağlı bəyanat verdi

yazısı səh.3-də

### Hüquq müdafiəçisindən vitse-admirala yeni ittihamlar

yazısı səh.13-də

### Bu il Azərbaycandan 22 xarici şirkət qovulub

yazısı səh.10-da

*"Sabunçulu Robinzon":*

### "Bizi prezidentdən gizlətdilər"

yazısı səh.14-də

**Ramazan ayının 28-ci günü**

İftar 21.18. İmsaq (azan) 5.08 (QMİ-nin cədvəli)

28-ci günün duası: "İlahi, bu gün məni öz vəzifəmdən artıq müstəhəb əməlləri yerinə yetirməyə müvəffəq et və bütün vəzifə və məsuliyyətlərimi hazırlayıb əməl etməyi kəramət et! Bu gün Sənə yaxın edən vasitələrin daha yaxın olanını mənə yaxınlaşdır! Ey istəyi olanların israrı və çox təmənna etmələri onu haqdan geri qoymayan Allah!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Məmmədovlar Kremlin iqtidar əleyhinə projesində?!

# ZİYA MƏMMƏDOVUN QÜRUBUNUN ŞOK SƏBƏBİ

Nəqliyyat nazirinin prezident seçkisi ərəfəsi "üsyançı" Abbas Abbasovla telefon danışıqlarını hakimiyyət deşifrə edibmiş; onun qardaşının isə Putinin ən yaxın adamı ilə biznes qurduğu ortaya çıxıb; Məmmədovlar iqtidarın inamını itirdiklərini ört-basdır etmək istəyirlər

yazısı səh.5-də



Cahangir Əsgərov



Tofiq Heydərov

## AZAL prezidentinə yaxın biznesmen həbs olundu

"AAAF Park" yaşayış kompleksinin baş direktoru saxlanıldı; Tofiq Heydərovu Beynəlxalq Bankın rəhbəri ilə nə birləşdirir?

yazısı səh.12-də



### Tağı İbrahimovdan 4,5 milyonluq villası ilə bağlı yeni açıqlamalar

yazısı səh.4-də



*Hacı Qamət:*

### "Mollalar məclislərdə vəhhabilərə qarşı nifrət oyadırlar"

yazısı səh.6-da



*Tahir İmanov:*

### "Müxalifət qəzetlərinə müsahibə vermirəm"

yazısı səh.4-də

# 26-29 iyul 2014

YENİ MÜSAVAT
N 189 (5898) 26 iyul 2014

# İlham Əliyev Ramazan Bayramı münasibətilə xalqı təbrik edib



**Azərbaycan prezidenti İlham Əliyev Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

APA-nın məlumatına görə, dövlət başçısının təbrik məktubunda deyilir:

"Əziz həmvətənlər! Mübarək Ramazan bayramı münasibətilə sizi və bütün dünya azərbaycanlılarını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi çatdırıram. Hikmətlər hikməti olan Qurani-Kərimin nazil olduğu Ramazan ayı bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu, düşüncəsini saflaşdıran əziz bir aydır.

Azərbaycanda milli və dini mərasimlər, o cümlədən Ramazan Bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Ölkəmizdəki dövlət-din münasibətləri, vətəndaşların dini etiqad azadlığı milli qanunvericiliyə və beynəlxalq hüquq normalarına uyğun olaraq tənzimlənir. Bu gün dünyanın tolerantlıq örnəyinə çevrilən Azərbaycanda ayrı-ayrı din və təriqətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin, multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Xüsusi vurğulamaq istərdim ki, vaxtilə sovet rejimi tərəfindən etiqad və vicdan azadlığının qadağan edildiyi ölkəmizdə indi bütün xalqların və dinlərin nümayəndələrinin rahat şəkildə və mehriban ailə kimi yaşaması müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biridir.

Bu günlər cəmiyyətimiz əsl bayram sevinci ilə yaşayır. Orucluğun sınağından könül xoşluğu və fərəhlə çıxanlar dünyanın və ölkəmizin əmin-amanlığı naminə və Vətən torpağı uğrunda canını fəda etmiş şəhidlərimizin müqəddəs ruhları üçün dualar edirlər.

Mərhəmət, şəfqət və bərabərlik rəmzi olan Ramazan ayında inanclı vətəndaşlarımızın tutduğu orucun, etdiyi dua və niyyətlərin Allah dərgahında qəbul olunmasını diləyir, bir daha hər birinizin bayramını təbrik edir, ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət arzulayıram. Allah orucunuzu qəbul etsin!"

# Leyla Yunus boykota başladı

## "Belə bir ölkədə Avropa Oyunlarını keçirmək rüsvayçılıqdır"

**Xəbər verildiyi kimi, Sülh və Demokratiya İnstitutunun yanında yaradılan Repressiyalara qarşı Müqavimət Mərkəzi 2015-ci ildə Bakıda keçiriləcək I Avropa Oyunlarını boykot edib. İyulun 25-də Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus boykot qərarı ilə bağlı mətbuat konfransı keçirib. O, konfransda boykot qərarı ilə bağlı ilk olaraq bunları deyib:**



"Azərbaycanda artmaqda olan repressiyalarla bağlı Müqavimət Mərkəzi yaratmışıq və 2015-ci ildə Bakıda keçiriləcək Avropa Oyunlarına boykot çağırırıq. Artıq dünən rus və Azərbaycan dillərində məktubum çap olundu. Olimpiya oyunlarının əsasını sülh, bərabərlik və insan hüquqları təşkil edir. Bu oyunların əsas ideyalarından biri də bir yerə yığışmaq və düşmən olmamaqdır. Avropa Olimpiya Komitəsinin ən böyük səhvi 1936-cı ildə yarışın Almaniyada keçirilməsi ilə bağlı qərar verməsi idi. Sonra bu qərara görə üzr istədilər. Ardınca növbəti səhvi yenə təkrarladılar. Belə ki, 1980-cı ildə Moskvada yarışı keçirdilər. Bir əsrdə iki dəfə səhv etdilər. İndi isə üçüncü səhvi etmək astanasındadırlar. Azərbaycan kimi avtoritar ölkədə oyunları keçirmək barədə qərar qəbul ediblər. Biz buna imkan verməməliyik. Hər il Azərbaycanda 10-a yaxın məhbus istintaq zamanı işgəncələrdən dünyasını dəyişir. Günbəgün siyasi məhbusların sırası genişlənir. 100-dən artıq siyasi məhbus var. Belə bir ölkədə Avropa Oyunlarını keçirmək rüsvayçılıqdır".

**Hüquq müdafiəçisi boykot qərarı ilə bağlı mərkəz adından yalnız özünün açıqlama verəcəyini də qeyd edib:** "Mərkəzimizdə Müsavat, AXCP, NİDA və başqa təşkilatlardan üzvlər var. İstəmirəm onlar zərbə altında qalsın. Çünki kim haqq sözünü deyirsə, dərhal həbs olunur. Yaratdığımız mərkəz boykot qərarı ilə bağlı bir neçə qruplara bölünüb. Avropanın insan hüquqları təşkilatları və mediası ilə danışıqlar aparacağıq. Biz fəaliyyətə yeni başlamışıq. Artıq İngiltərənin mətbuat orqanları bu barədə yazılar dərc edirlər. Siyasi fəalların həbs edildiyi, işgəncələrə məruz qaldığı, müxalifətçilərin məhbəsdə olduğu ölkədə belə yarış təşkil etmək dəyərlərə ziddir. İnanıram ki, çox keçməyəcək sizlər bu kampaniyanın nəticəsini görəcəksiniz. Belə kampaniyalara hər zaman böyük diqqət olur".

**Sonda hüquq müdafiəçisi mətbuata müraciət edib:** "Bilirəm ki, bu kampaniyaya iqtidar tərəfindən böyük narazılıq olacaq. Hər kəsin fikrinə hörmətim var. Hamı öz yolu ilə gedir. Sizlərdən xahişim budur ki, bu barədə mənə zəng edib, fikir soruşmayın. Kim nə danışır, qoy danışsın..."

❑ **Cavanşir ABBASLI**
**Foto müəllifindir**

# Hakimiyyət müxalifəti niyə "narkotiklə" tutur?

## Düşərgə bunun ən primitiv metod olduğunu bildirir, hüquq müdafiəçiləri isə narahatdır

**Ölkədə müxalifət düşərgəsindəki yeni həbslər bu dalğanın davamlı olacağı ehtimallarını gücləndirir. Son olaraq iyulun 23-də Müsavat Gənclər Təşkilatı sədrinin müavini, blogger, musavat.org.az saytının administratoru Fərəc Kərimov həbs edilib. Daxili İşlər Nazirliyi bildirib ki, baxış zamanı onun üzərindən narkotik vasitə aşkar edilərək götürülüb.**

Son vaxtlar həbs edilən müxalifətçilərə qarşı narkotik ittihamının irəli sürülməsi isə cəmiyyəti və düşərgəni narahat edir. Hüquq müdafiəçilərinin fikrincə, baş verənlər ciddi olaylardan xəbər verir və baş verənlərə davamlı, güclü etiraz olmalıdır.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** bildirib ki, müxalifətçi gənclərin narkotik ittihamı ilə həbsi onları çox narahat edir: "Biz bununla bağlı mətbuat konfransı keçirəcəyik. Məsələləri ciddi şəkildə müzakirə etmək lazımdır. Bu, biabırçılıqdır, bu məsələləri qaldırmaq, gündəmə gətirmək vacibdir. Necə olur gənclərin hamısı narkotikdən istifadə edir? Azından, heç onların narkotik almağa pulları yoxdur. Mən son olayla bağlı Daxili İşlər Nazirliyi ilə danışmışam, məsələnin araşdırılmasının vacib olduğunu bildirmişəm. Belə olmaz".

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı isə qeyd edib ki, müxalifətçilərin narkotik ittihamı ilə həbs edilməsinin səbəblərini bilmək çətin deyil:** "Yəqin daha özlərinə əziyyət verib, işləyib ayrı ittihamlar tapa bilmirlər, asan yoldan istifadə edirlər. Gənclərin narkotik istifadəçisi kimi şərlənib həbsə atılması təəssüfedici haldır. Bu barədə geniş müzakirə aparmağı qərarlaşdırmışıq".

**Müsavat Partiyasının Divan üzvü Tural Abbaslı isə qeyd edir ki, F.Kərimovla ilə bağlı baş verən olayın səbəbi sadədir:** "Hakimiyyət bununla özünü ifşa edir. Çünki beynəlxalq təşkilatların hesabatlarında, siyahılarında Azərbaycanda narkotrafikin və narkitok vasitə aludəçilərinin sayı orta dünya statistikasından çox göstərilir. Hakimiyyət bunu etiraf etməsə də, Azərbaycanda böyük əksəriyyət narkotikdən istifadə edir. Yəqin ki, hakimiyyət də müxalifətçiləri məhz narkotiklə tutmaqla həm həmin statistikaya əsaslanaraq qeyd etmək istəyir ki, müxalifətçilər də bundan xali deyillər, biz də qanuna əməl edirik və onları tuturuq. Həm də bu ittiham şəxsi öz növbəsində əhatələrində, qohumlarının, ailələrinin, tanışlarının yanında gözdən salmaq məqsədi güdür. Bu, işə yarayan və asan üsuldur, hakimiyyət özünü çətinə salıb yeni metodlar fikirləşmək istəmir. Ona görə də klassika köhnəlmir prinsipinə əməl edərək bu maddələrdən istifadə edirlər".

❑ **RÖYA**

# Tanınmış vəkil müştərilərini məhkəməyə verəsi olmadı

## **Əsabəli Mustafayev:** "Bu işi onların vicdanlarına buraxdım"

**Tanınmış vəkil Əsabəli Mustafayev hüquqlarını müdafiə etdiyi bir neçə nəfəri məhkəməyə verməkdən vaz keçib. Qeyd edək ki, vəkil 2003-cü ilin oktyabr hadisələri ilə əlaqədar məhkum olunanlardan müdafiə etdiyi 9 nəfər haqda məhkəməyə müraciət etməyi planlaşdırırdı. Vəkilin bu addımı atmasına səbəb isə həmin şəxslərə göstərdiyi hüquqi yardımın əvəzində ödənilməli olan pulun indiyə kimi verilməməsidir.**

Vəkil "Yeni Müsavat"a açıqlamasında bildirib ki, artıq məhkəməyə müraciət etməyəcək: "Pulu bir çoxu ödəmədi. Mən də baş qoşmadım, bu işi onların vicdanlarına buraxdım. Görünür, onların mənəviyyatı elədir". Ə.Mustafayevin sözlərinə görə, vəkil Avropa Məhkəməsinə müraciət hazırlayarkən, orada onun üçün konkret məbləğ nəzərdə tutulur: "Avropa Məhkəməsinin praktikasında belədir ki, vəkilin qonorarı da iddiaçıya ödənir. Ancaq bizdə problemdir, işi udan kimi iddiaçı qaçıb gizlənir. Bu problem ölkədəki əksər vəkillərdə var, onlar pullarını, qonorarlarını ala bilmirlər. İndi göndərdiyimiz şikayətlərdə göstəririk ki, vəkilin pulu ayrıca olaraq hesabımıza ödənsin. Yəqin bununla məsələ həll olunar, daha problem yaranmaz".

**Ə.Mustafayev qeyd edir ki, Avropa Məhkəməsi vəkil üçün iddiaçıya ödəniləcək məbləğin 20 faizi həcmində pul ödənilməsini nəzərdə tutur:** " Yəni bu pul hüquqi xidmət üçün ayrılır. Bizdə isə iddiaçılar heç tərcümə xərclərini ödəmirlər. Əvvəl deyirlər ki, pulumuz yoxdur, işi udandan sonra da qaçıb çıxırlar aradan. Biz heç real çəkilən xərcləri onlardan ala bilmirik, o ki qaldı öz zəhmət haqqımızı".

Qeyd edək ki, Avropa İnsan Hüquqları Məhkəməsi 11 dekabr 2012-ci ildə 2003-cü ilin oktyabr hadisələri ilə əlaqədar məhkum olunmuş 11 nəfər barəsində qərar qəbul edib. Vəkil Əsabəli Mustafayev deyib ki, müdafiə etdiyi 9 nəfərdən 8-nə 10 min avro, 1-nə isə 12 min avro ödənilib. Vəkilin sözlərinə görə, Avropa Məhkəməsindəki proses onun əməyi və şəxsi xərcləri əsasında aparılıb.

❑ **RÖYA**

# Anar Məmmədli yenidən sədr seçildi

**İyulun 24-də Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) ümumi yığıncağı keçirilib. Toplantıda SMDT-nin İdarə Heyətinə yeni üzvlər seçilib. Yığıncaqda Anar Məmmədli yenidən SMDT-nin sədri, Bəşir Süleymanlı və Samir Kazımlı isə sədr müavinləri seçiliblər.**

SMDT Azərbaycanda azad, ədalətli və şəffaf seçkilərin keçirilməsi, vətəndaş cəmiyyəti və demokratiyanın inkişafı sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatıdır. SMDT 1 dekabr 2008-ci ildə, qeydiyyatı ləğv edilmiş Seçki Monitorinq Mərkəzinin (SMM) bazası əsasında təsis olunub. SMM 2001-ci il 24 iyulda təsis edilib. 14 may 2008-ci ildə isə SMM-in qeydiyyatı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin qanunsuz iddiası əsasında Xətai Rayon Məhkəməsi tərəfindən ləğv edilib. Xatırladaq ki, mayın 26-da Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə SMDT-nin rəhbəri Anar Məmmədli 5 il 6 ay, Bəşir Süleymanlı isə 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Yerli və beynəlxalq hüquq müdafiəçilərinin fikrincə, onların həbs olunmasının əsl səbəbi SMDT-nin fəaliyyəti, seçkiləri müşahidə edib rəy vermələri, xüsusilə də 2013-cü ilin oktyabrında keçirilmiş prezident seçkiləri zamanı ciddi qanun pozuntularına yol verilməsi haqda rəy vermələridir. Yerli və beynəlxalq ictimaiyyət onların dərhal azad edilməsini istəyir.

❑ **Sevinc TELMANQIZI**

# Sevinc Babayevanın oğlunu niyə azadlığa buraxdılar?

## Ayxan Məmmədov barədə sərt hökmün verilməsi hakimin özfəaliyyəti olub

**Xəbər verdiyimiz kimi, "mandat alveri" qalmaqalının əsas fiqurlarından olan mərhum Sevinc Babayevanın oğlu Ayxan Məmmədov artıq azadlıqdadır. Girov müqabilində azadlığa buraxılan A.Məmmədov media işçiləri ilə hər hansı ünsiyyətə girmir. Onun telefon zənglərinə dostları cavab verir və Ayxanın bir neçə gündən sonra danışmaq üçün uyğun olacağını deyir.**

Redaksiyamıza daxil olan məlumata görə, əslində A.Məmmədov barədə bu qədər ağır qərarın verilməsi hakim özfəaliyyətinin nəticəsi olub. Amma hadisə mediada yer alandan sonra bu barədə geniş müzakirələr və versiyalar səslənməyə başlayıb. Bu versiyalardan biri də A.Məmmədovun zamanında verdiyi açıqlamalara görə cəzalandırılması və ailəsinə də bu həbslə "göz dağı" verilməsidir. Sabiq deputat Gülər Əhmədovanın da azadlığa çıxmasından sonra "mandat qalmaqalı" hadisəsini tamamən unutdurmaq istəyən hakimiyyət A.Məmmədovu həbsdə saxlamaqla buna nail ola bilməzdi. Odur ki, ikinci instansiya məhkəməsinin vasitəsilə gənci azadlığa buraxdıran hakimiyyət bununla da məlum qalmaqalın "tozlarını" silməyə çalışır. Əslində isə son qərar zənn edildiyi kimi, A.Məmmədovun qorunması xatirinə verilməyib. Məqsəd sözügedən qalmaqalın bütün izlərini, fiqurlarını ictimaiyyətin yaddaşından silməkdir.

A.Məmmədovun da bundan sonra mediaya qəti danışmayacağını nəzərə alanda(ilk gün yoldaşları vasitəsilə verdiyi mesaj bu barədə düşünməyə əsas verir-müəl.) hakimiyyətin də öz məqsədinə çatdığı görünür.

Xatırladaq ki, ittihama görə, Ayxan Məmmədov "Favorit" marketdə oğurluğa cəhd etdiyi üçün Binəqədi Rayon Məhkəməsinin hökmü ilə 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilmişdi. O, bu il iyunun 25-də həbs edilmişdi.

❑ **SEVİNC**


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

YENİ MÜSAVAT
N 189 (5898) 26 iyul 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Müsavat həbs olunmuş qardaşların taleyindən narahatdır

**Müsavat Partiyası həbs olunmuş müsavatçı gənclərlə bağlı bəyanat yayıb.**

## "Fərəc Kərimovun siyasi və blogger fəaliyyətinə görə siyasi sifarişlə həbs edildiyi şübhə doğurmur"

Partiyanın mətbuat xidmətindən daxil olan bəyanatın mətnində bildirilir ki, Müsavatçı Gənclər Təşkilatının NTK-nın sədri blogger, musavat.org.az saytının administratoru Fərəc Kərimov 23 iyul 2014-cü il tarixində Bakı Sağlamlıq Mərkəzinin reanimasiya şöbəsinin qabağından mülki geyimli şəxslər tərəfindən heç bir sənəd təqdim edilmədən, ona hüquq və vəzifələri elan edilmədən faktiki olaraq oğurlanaraq, iradəsi əleyhinə məcburən qeyri-müəyyən istiqamətdə aparıldığı haqqında KİV-də informasiyalar yayılıb.

**Daha sonra bəyanatda qeyd olunur:** "Həmin gün Daxili İşlər Nazirliyinin yaymış olduğu rəsmi məlumatda Fərəc Kərimovun polislər tərəfindən saxlanıldığı, saxlanılan zaman üzərində narkotik maddənin tapıldığı və saxlanma səbəbi kimi onun psixotrop maddələrin internet üzərində təbliğat apardığı qeyd olunub. Bu məlumatdan sonra F. Kərimovun ailə üzvləri, vəkili və üzvü olduğu partiyanın rəsmiləri onun harada saxlanılması haqqında heç bir məlumat ala bilmir.

Mövcud qanunlara zidd olaraq, F. Kərimov 48 saatdan artıqdır ki, ailəsindən və cəmiyyətdən gizli saxlanılır. Onun haqqında hansı qərarın qəbul olunduğu və harada saxlandığı barədə informasiya verilmir ki, bu da qanunların ciddi şəkildə pozulmasıdır.

Fərəc Kərimovun siyasi və blogger fəaliyyətinə görə siyasi sifarişlə həbs edildiyi şübhə doğurmur. Lakin onun tutulduğu andan indiyə kimi gizlədilməsinin arxasında hansı məqsədlərin durduğunu aydınlaşdırmaq çətinlik törədir.

17 iyul 2014-cü ildə F. Kərimovun siyasi fəaliyyətlə məşğul olmayan böyük qardaşı Sirac Kərimlinin küçədə saxlanılaraq, üzərindən əməliyyatçılar tərəfindən guya narkotik maddənin tapılması, evində axtarış aparılarkən ilk olaraq Fərəcə məxsus notebookun axtarılması və götürülməsi bu həbsin Fərəc üçün planlaşdırıldığını təsdiq edirdi. Bu hadisədən sonra yaşadıqları mənzilin xüsusi xidmət orqanları tərəfindən tam nəzarətdə saxlanıldığını və evdən çıxan kimi tutulacağını bilən F. Kərimovun ağır vəziyyətdə olan xəstə anasını xəstəxanaya apararkən üzərində narkotik maddə saxlaması heç bir məntiqə sığmır.

Azərbaycan iqtidarının və səhiyyəsinin sayəsində Hepatit - C virusu daşıyan F. Kərimovun 2 sutkadan artıq gizli saxlanmasının qanuna və insanlığa zidd olduğunu, bu vəziyyətin onun həyatı üçün böyük təhlükə olduğunu bəyan edən Müsavat Partiyası qanunsuz və əsassız olaraq həbs edilmiş Sirac Kərimlinin və Fərəc Kərimovun qeyri-şərtsiz olaraq dərhal həbsdən azad edilməsini tələb edir".

İyulun 23-də tutulan müsavatçı Fərəc Kərimovun barəsində 3 ay həbs-qətimkan tədbiri seçilib.



Fərəc Kərimov

# Qarabağ veteranı özünü PA qarşısında yandırmaq istədi

## Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütfəli Babayev Fəqan Nəsibovun 65 min dollarını mənimsəyib




**İyulun 25-də Qarabağ müharibəsi veteranı, sahibkar Fəqan Nəsibov özünü Prezident Administrasiyasının (PA) qəbul otağının qarşısında yandırmağa cəhd edib.**

Fəqan Nəsibovun verdiyi məlumata görə, Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütfəli Babayev onun 65 min dollarını mənimsəyib. O, üzləşdiyi haqsızlıqla bağlı hara şikayət etsə də sözünü eşidən olmayıb. Veteran son çıxış yolunu özünə qəsd etməkdə görüb.

F.Nəsibov üzərinə benzini töküb özünü yandırmaq istədikdə, Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları tərəfindən hadisənin qarşısı alınıb.

Qeyd edək ki, Qarabağ müharibəsi iştirakçısı PA-nın qarşısına ailəsi ilə birlikdə gəlmişdi.

Bir neçə gün əvvəl ölkədə özünü yandıran Qarabağ qazisinin problemi barədə isə heç bir məlumat verilmir. Bəzi aidiyyəti qurumlar isə hətta onun Qarabağ qazisi olmadığını iddia edir.

Qarabağ Qazilər Birliyinin sədri Etimad Əsədov qezetimizə açıqlamasında bildirib ki, özünü yandıran Əli Həsənov Qarabağ qazisi deyil: "O, müharibə veteranı idi. Heç bir təşkilatda da qeydiyyatdan keçməmişdi".

Birliyin mətbuat xidmətinin rəhbəri Rey Kərimoğlu da bildirib ki, intihar edən şəxs Qarabağ müharibəsi əlili olmayıb: "Onu Müharibə Veteranları Birliyində tanıyarlar".

**Müharibə Veteranları Birliyinin sədri Füzuli Rzaquliyev isə qeyd edib ki, Əli Həsənov onların təşkilatının üzvü olmayıb:** "Ancaq o, Qarabağda döyüşüb, qazidir. Maraqlandım, eşitdiyimə görə, intiharına səbəb ailə münaqişəsi olub, qohumları ilə torpaq davası olub".

Qeyd edək ki, qazi Əli Həsənov bir neçə gün əvvəl özünü yandırıb. Hadisə axşam saatlarında Buzovna qəsəbəsi Ordubadi küçəsi, 29 ünvanında baş verib. 1974-cü il təvəllüdlü Əli Ənvər oğlu Həsənov üzərinə benzin tökərək özünə od vurub. Hadisə insanların gözü qarşısında baş verib. Dəhşətli hadisədən sonra Əli Həsənovun bədəni bütünlüklə yanıb. Ağır yanıq xəsarətləri ilə xəstəxanaya aparılarkən Ə.Həsənov yolda ölüb. Ə.Həsənovun Qarabağ müharibəsi iştirakçısı olduğu, döyüşlərdə kontuziya aldığı bildirilir. Həmçinin qeyd edilir ki, onun evi və ailəsi olmayıb.

❑ RÖYA

# Xanlar Vəliyev orduda törədilən cinayətlərdən danışıb

**Silahlı birləşmələrdə qulluğa səhlənkar yanaşma, mülkiyyət əleyhinə cinayətlər və qəsdən sağlamlığa ağır zərər vurma cinayətləri artıb.**



Xanlar Vəliyev

APA-nın məlumatına görə, bu barədə Azərbaycanın hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev Respublika Hərbi Prokurorluğunda 2014-cü ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsində bildirib.

O qeyd edib ki, əvvəlki hesabat dövrü ilə müqayisədə 2014-cü ilin birinci yarısında cinayətlərin sayı əhəmiyyətli dərəcədə azalıb. Hərbi hissəni və ya xidmət yerini müharibə vaxtı və ya döyüş şəraitində özbaşına tərk etmə faktları ümumiyyətlə qeydə alınmayıb. Qeydə alınmış cinayətlərin 99,9 faizi, o cümlədən bütün ağır və xüsusilə ağır cinayətlərin açılması təmin olunub.

X. Vəliyev qeyd edib ki, bu növ cinayət hadisələrinin azalmasında hərbi prokurorluq orqanlarının Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlarla qarşılıqlı, sağlam və işgüzar əlaqələrinin yaranmasının, habelə təsdiq olunmuş plan əsasında həyata keçirilən birgə tədbirlərin çox böyük əhəmiyyəti olub. Bununla yanaşı, qanunvericilikdə nəzərdə tutulmuş silahlı birləşmələrdə qulluğa səhlənkar yanaşma, mülkiyyət əleyhinə cinayətlər və qəsdən sağlamlığa ağır zərər vurma cinayətləri artıb.

Silahlı Qüvvələrdə və qanunvericilikdə nəzərdə tutulmuş başqa silahlı birləşmələrdə qəsdən adamöldürmə, özünü öldürmə həddinə çatdırma, tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətlərinin qarşısının alınması üçün Respublika Hərbi Prokurorluğunun kollegiyalarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə həmin cinayətlərin məhkəmə və istintaq təcrübəsi ümumiləşdirilməklə müzakirə edilib. X. Vəliyev vurğulayıb ki, Silahlı Qüvvələrdə və qanunvericiliyə uyğun olaraq yaradılan digər silahlı birləşmələrdə qəsdən və ehtiyatsızlıqdan adam öldürmə, özünü öldürmə, eləcə də düşmən tərəfindən açılmış atəş nəticəsində xəsarət almış və ya öldürülmüş, habelə xəstəliklə bağlı və ya avtoqəza nəticəsində baş vermiş ölüm hadisələri ilə əlaqədar hər bir fakt üzrə Respublika Hərbi Prokurorluğu tərəfindən dərhal Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılır və istintaq hərəkətləri aparılmaqla cinayət törətmiş şəxslərin məhkəmə məsuliyyətinə verilməsi təmin olunur.

# Centlmensayağı məğlubiyyət



Azər RƏŞİDOĞLU

**Gürcüstanda təqribən 3 ton heroinin saxlanılması ciddi qalmaqaldan xəbər verirdi. Bu səviyyədə irimiqyaslı cinayətin üstünün açılması gurultulu həbslərə də səbəb olmalı idi.**

Lakin iyulun 11-də 2 ton 795 kiloqram maye heroinin gürcülər tərəfindən saxlanılması nəticəsində cəmi iki Gürcüstan vətəndaşı həbs edildi.

Təxminən 3 ton heroinin Gürcüstan üzərindən Türkiyəyə, oradan da Avropaya keçirilməsi cəhdi Azərbaycan hakimiyyətinin üzərinə qaranlıq bir kölgə salırdı. Gözləmək mümkün idi ki, müxalifət bu göydəndüşmə fürsəti yetərincə dəyərləndirə biləcək. Gürcü hüquq mühafizə orqanlarının aşkara çıxardığı bu fakt Azərbaycan hakimiyyətini silkələməyə kifayət edirdi. Müxalifət isə susqunluq nümayiş etdirdi. Bir iki bəyanatdan savayı hansısa əməli addımın atılması da müşahidə edilmədi.

Müşahidə olunan süstlük anlaşılan deyildi. Araşdırmaçılar hesab edirlər ki, müxalifət ən müxtəlif instansiyalara sorğular göndərməli, ictimai rəyi məmurların beynəlxalq narko ticarətə bağlılığına inandırmalı idilər. Bu addımların biri də atılmadı. Anlaşılmaz və çoxsaylı suallar doğuran bir məsələdir.

"3 ton heroin qalmaqalı" Azərbaycan hakimiyyəti üçün kifayət qədər ciddi başağrısına çevrilə bilərdi.

Bu, o dərəcədə ciddi məsələ idi ki, onun üstündən sükutla keçmək mümkün deyildi.

"3 ton heroin qalmaqalı"nın arxasında konkret mesajların da durduğu bəllidir.

Heç şübhəsiz ki, Qərb Gürcüstanla sərhəddə Azərbaycandan gələn külli miqdarda narkotik maddəni aşkarlamaqla Bakıya konkret mesajlar çatdırmaq istəyir.

Bu olay iqtidarın kimliyini araşdıranlara da açıq aydın cavab oldu. O cümlədən bir daha bəlli oldu ki, müxalifət ən önəmli məqamlarda hakimiyyətə öldürücü zərbələr vurmaqdan yayınır və əksər hallarda bu, şüurlu şəkildə edilir.

Heç bir oyun qaydalarına məhəl qoymayan iqtidara qarşı müxalifətin bu dərəcədə centlmenlik nümayiş etdirməsi anlaşılan deyil.

"Heroin qalmaqalı" ilə bağlı müxalifətdən mitinq və ya piketlərin keçirilməsi də tələb olunmurdu. Bu məsələ ətrafında dəyirmi masa, ictimai müzakirələr təşkil etmək kifayət edə bilərdi. Bütün bunların baş verməməsi anlaşılan deyil.

İqtidarın ən ağır məqamlarında bəzi müxalifətçilər özlərini olduqca soyuqqanlı aparır. Buna artıq hamı vərdiş edib. Lakin yenə də anlaşılan deyil ki, müxalifət şansını niyə dəyərləndirmək istəmir.

Görünür, müxalifət çətin duruma düşdüyü zamanlarda iqtidara zərbələr endirməyi özünə rəva bilmir. Söhbət yalnız son "heroin qalmaqalı"ndan da getmir. Problem ölkədəki siyasi sistemin işlək olmamasındadır. Ümumiyyətlə, Azərbaycandakı siyasi sistem vahid bir orqanizmi xatırladır. Sanki eyni ssenaridə rollar bölünüb. İndi isə bu sistem işləmir. Sistem iflasa uğrayıb. Sistem yenilənmə tələb edir. Belə sistemlə növbəti illər ərzində fəaliyyət göstərmək mümkün olmayacaq. Yeni taktika və ən əsası yeni strateji tələb olunur. Əlbəttə ki, resurslar olmadan, geosiyasi reallıq dəyişmədən keyfiyyətcə yeni siyasi müstəvini yaratmaq da imkansız görünür.

İqtidara çətin anlarında centlmensayağı davranan müxalifətin bir-birilərinə münasibəti də maraqlıdır.

Yaranan təəssürat ondan ibarətdir ki, sanki müxalifət bir-birinin qanına susayıb. Bunun mahiyyətini anlamaq da mümkündür. Baş verənlər siyasi mübarizədən daha çox imitasiyaya bənzəyir.

Lakin müxalifətdaxili ziddiyyətlər o dərəcədə ağırdır ki, belə getsə, 2015-ci ildə keçiriləcək parlament seçkilərinin nəticələri də sürprizə səbəb olmayacaq. İqtidara qarşı centlmen, müxalifətə qarşı aqressiv davranan iqtidar opponentləri belə taktika ilə özlərini uğurdan uzaqlaşdırırlar...



# Narkoman müxalifətçilər

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

## Bəlkə 3 ton heroin də Müsavatın ayağına yazılsın!..

**Hakimiyyət müsavatçılarla çəkinib-eləmədən, dünyanın gözü qarşısında haqq-hesab çəkir, onlardan ailəlikcə qisas alır. Bu, artıq əlahiddə bir presedent, təsadüfə oxşamır, ənənə şəklini almış, düşünülmüş siyasət təsiri bağışlayır.**

Müxalifətə, Müsavat fəallarına qarşı repressiya maşını, şərləmələr hətta mübarək Ramazan ayında da dayanmadı, əksinə, özünü bütün qəddarlığı ilə göstərdi.

Budur, Tofiq Yaqublu ailəsinə edilən sitəm, haqsızlıq bitib-tükənməmiş, indi də müsavatçı Rafiq Kərimli və onun övladlarına qarşı şər-böhtan kampaniyası bütün dolağı ilə işə salınıb. Əcaib mənzərədir.

İşə bir baxın: müxalifətçi gənc fəalı insult vəziyyətində olan anasını həkimə gətirdiyi yerdə başına torba salıb oğurlayanlar, ona işgəncə verənlər, az öncə guya səhvən digər qardaşını oğurlayıb aparanlar, daha betəri, onların hər ikisinə qarşı artıq beynəlxalq təşkilatlarda da ikrah doğuran bir maddəni - narkotik ittihamını irəli sürüb şərləyənlər utanmadan Azərbaycanı yenə də hüquqi dövlət adlandırırlar.

Sonra da deyirlər ki, Leyla Yunus niyə radikaldır, nə üçün fəryad qoparır, nədən Avropa Yay Oyunlarının Bakıda keçirilməsinin boykot edilməsi üçün israrla demokratik Avropaya çağırışlar edir, "gözü götürməzlik" edir, "milli maraqlar" əleyhinə gedir?

Ölkədə elementar haqq-ədalət istəyənlər, günahsız insanlara, müxalifətçilərə və onların ailələrinə, azyaşlı övladlarına qarşı repressiyaya son qoymağı tələb edənlər, buna qarşı bacardığı qədər, ən müxtəlif üsullarla mübarizə aparanlar bələlərinin - ölkəni fəziləti ayda belə çapıb-talamaqdan doymayanların, dünyada rəzil edənlərin gözündə həmişə cin-şeytan, əcinnə qismində görünüblər.

Yeri gəlmişkən, yanılmırıqsa, Müsavat Partiyası da hakimiyyəti xəbərdar eləmişdi ki, siyasi məhbuslar tezliklə azadlığa buraxılmasa, Yay Oyunlarını boykot kampaniyasına başlayacaq. Siyasi məhbuslar isə nəinki azadlığa çıxdılar, üstəlik, onların sırası daha da genişləndi - özü də yenə müsavatçıların hesabına...

Ancaq şəxsən mən Bakıda Avropa Oyunlarının keçirilməsinin əleyhinə deyiləm. Çünki belə tədbirlər ölkənin tanınma məsələsi ilə yanaşı, daxildəki rejimin sivil dünyanın, Qərb mətbuatının diqqətinə gəlməsi baxımından önəmlidir. "Eurovision"u yada salın. Hakimiyyət hələ də insan haqları ilə bağlı sərt qınaqların, yazılan kəskin məqalələrin təsirindən çıxa bilməyib. Bu da olsun - ikinci "Eurovision". Ona qalsa, gərək 2018-ci ildə Rusiyada da futbol üzrə dünya çempionatı keçirilməsin, çünki Putin neçə aydır dünyaya meydan oxuyur...

Mövzumuza qayıdaq. Bəzi vicdansız ağzıgöyçəklər də iddia edirlər ki, guya Müsavat hakimiyyətlə 2015-cil il seçkiləri ilə bağlı mandat anlaşması içindədir. Hanı bəs? Hanı o bazarlıq? Olmaya deputat mandatlarını Müsavat yetkililəri Tofiq Yaqubluya və Yadigar Sadıqova ərməğan edəcəklər - zindanda göstərdikləri dəyanətə, sınmadıqları, əfv ərizəsi yazmadıqlarına görə?! Ya bəlkə müsavatçı Rafiq Kərimliyə ləyaqətli müsavatçı övladı yetişdirdiyi üçün veriləcək? Müsavatın adicə qurultay keçirib əzəmətli görünməsindən təlaşa düşüb də ona babat yer ayırmayan bir hakim qüvvənin Rəsulzadə partiyasına reveransı mümkünmü, əcəba?

Cavabı yazmağa dəymir və belə görünür, ölkədə rejim dəyişməyincə dəyməyəcək də. Hələliksə, hakimiyyətin narkotik arsenalı qurtarmaq bitmir. Deyirik, bəlkə elə 3 ton heroini də müxalifətin, Müsavatın ayağına yazıb tək-tük müxalifət partiyalarını birdəfəlik bağlasınlar, YAP iqtidarının da canı müxalifətdən birdəfəlik qurtarsın. Fəqət, qurtaracaqmı?

Çətin. Çünki müqəddəs yer boş qalmır. Onu İŞİD kimilər də tuta bilər. İslam adına, insanlıq adına ləkə olsalar belə. O zaman çətin ki, narkotiklə şərləmələrə, siyasi şoulara və qondarma məhkəmələrə vaxt qalsın. Məncə, hakimiyyət hazırkı mötədil, demokratik müxalifətin qədrini çox sonralar biləcək - əfsus ki, iş-işdən keçəndə, İŞİD kimi əcaib qüvvələr gələndə...

# "Satmışam, hə, nə olsun?!"

## Tağı İbrahimov 4,5 milyonluq villası ilə bağlı "Yeni Müsavat"a danışdı

**Diasporla iş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun qardaşı, ATV-nin keçmiş rəhbəri Tağı İbrahimovun Novxanıda yerləşən villasını satması ətrafında müzakirələr səngimir. Villanın 4,5 milyon manata satılması ilə yanaşı, bu məbləğdə evin kim tərəfindən alınması da maraq dairəsində idi.**




Azpolitika.az saytı bu arada yazdı ki, T.İbrahimovun 4,5 milyon manata satdığı möhtəşəm villanın yeni sahibi Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Bayram Səfərov imiş. Məlumata görə, Novxanının demək olar ki, ən gözəl yerində, üzü dənizə baxan təpənin yamacında yerləşən villa böyük ərazini əhatə edir. Bu ərazidə Azərbaycanın ən qüdrətli adamlarının - nazirlərin, iş adamlarının, generalların, polis rəislərinin və digərlərinin milyonluq villaları, bağ evləri yerləşir. İçərisində çoxlu sayda qiymətli ağacların, güllərin əkildiyi bağın dizaynının yüksək zövqlə işləndiyi də yayılan məlumatlar sırasındadır.

B.Səfərov özü isə mətbuata açıqlamalarında bir-birini təkzib edən, qeyri-müəyyən açıqlamalar verməklə çaşqınlıq yaratdı. Publika.az-a açıqlamasında "lap 5 milyon yazsınlar. Hamı villa ala bilər, mən yox? Belə şeylərə fikir vermək lazım deyil" desə də, ardınca "bu, yalan və ya doğru məlumat ola bilər. Məndə o qədər pul hardandır? O qədər pulum yoxdur. Villanı alğı-satqı etməmişik, "barter" etmişik" deyib. İcma rəhbəri "Yeni Müsavat"a açıqlamasında isə "Belə bir villa var, ya yoxdur, kimə nə dəxli var ki" deyib.

Odur ki, yenidən villanın keçmiş sahibinə müraciət edib detalları aydınlaşdırmaq istədik.

**Tağı İbrahimov "Yeni Müsavat"ın bu barədə sualını öncə əsəbiliklə qarşıladı:** "Satmışam, hə, nə olsun?! Kimə satmışam, bunun nə dəxli var?" Ardınca iş adamı bildirdi ki, qəzəbinin kökündə bizim "Yeni Müsavat" olaraq ona telefon açmağımız dayanmır:

- Vallah, bəlkə də siz 40-cı jurnalistsiniz ki, bu məsələ ilə bağlı zəng edibsiniz. Mənim də işim-gücüm var, nə qədər eyni sualı eşitmək olar? İnan ki, mən sizə görə əsəbiləşmirəm. Özüm də 12 il media-holdinqin başında dayanmışam. Mövqeyim belədir ki, jurnalist bir məlumat aldısa, hadisə gördüsə, onu yazmadısa, o, jurnalist deyil. Amma axı bu məsələ elə də sensasiyalı şey deyil ki, ard-arda yazıla ki, filankəs bağını satdı. Satıb, satıb da, əl çəkin. (gülür)



Tağı İbrahimov

### "Xahiş edirəm, yazın ki, jurnalistlər bu mövzu ilə bağlı bir də mənə müraciət etməsinlər"

***- Tağı müəllim, amma alqı-satqı işində Bayram Səfərovun adı hallandı. Hətta Qarabağ icması sədrinin müəmmalı cavabı da çaşqınlıq yaradıb. Gah villanı aldığını, gah da o qədər pulunun olmadığını deyir. Bunu sizdən dəqiqləşdirmək istəyirdik...***

- Mən bu evlə bağlı oğluma zəng etmişdim. Özü xaricdə yaşayır. Uşaqlar çıxıb gedib, o boyda bağ qalıb başsız. Dörd mühafizəçi var, onlar oturub orda, yaşayırlar. Mən də baxdım ki, o boyda ev qalıb başlı-boşuna, xarab olur, dedim götürüb sataq da. Oğlum da dedi ki, bir dostum var, ona satıram. Dedim satırsan, sat da. Vallah, heç bilmirdim kimə satıb. Sonra bildim ki, evi alan da Moskvada yaşayan Tofiq adlı biznesmendir, yaxşı da oğlandır, oğlumla dostdur.

***- Bəs Bayram Səfərovun adı niyə hallanıb?***

- Mən nə bilim? Onu hardan tanıyıram? İndi birini kimsə istəmir, gözü götürmür, haqqında müxtəlif şayiələr yayır. Yəqin kimsə onu istəmir, götürüb adını yazıb.

***- Bəs evi 4,5 milyona satdığınızı təsdiqləyirsiniz?***

- Yox, ucuz satmışıq. Əvvəllər deyirdi satım, deyirdim qalsın. Amma indi ucuz satdıq, deyilən qiymətdən yanbayarı aşağı. Yazıblar, mən də ciddi reaksiya vermirəm. Mən 20 ildir heç kimə müsahibə vermirəm. 12 il televiziya rəhbəri oldum, bir adam müsahibə verdiyimi, ya şəklimi görüb? Yox. Mən müsahibə verməyi xoşlamıram. Ancaq adım hallanıb, mən də qısaca deyirəm, bütün bunları yaz, məsələ bağlansın. Xahiş edirəm, yazın ki, jurnalistlər bu mövzu ilə bağlı bir də mənə müraciət etməsinlər.

***- Siz hazırda Türkiyədəsiniz, yoxsa Bakıda?***

- Yox, Bakıdayam. Mən həm Türkiyədə oluram, həm də burda. İşlərim o qədərdir ki, başımı qaşımağa vaxtım yoxdur. Ona görə də əvvəl əsəbiləşdim. Amma Allaha and olsun sizə görə deyildi. Neçə gündür bir bağın söhbəti gedir. Mən biznesmənəm də, işim satıb-almaqdır. Yəqin camaatın yazmağa mövzusu yoxdur.

❑ **Elşad PAŞASOY**

# "Müxalifət qəzetlərinə müsahibə vermirəm"

## Tahir İmanov: "Qardaş, danışmaq istəmirəm də..."

**"Şən və hazırcavablar klubu"nun (KVN) dəfələrlə müxtəlif peşə sahiblərini parodiya etdiyinin şahidi olmuşuq. Bu dəfə isə klubun aktyor heyəti həmişəki ənənəsinə sadiq qalaraq Azərbaycan siyasətçilərinə də üz tutub.**




Parodiya olunanlar arasında Milli Məclisin deputatları, nazirlər var. Parlamentin mətbuat xidmətindən bu məsələyə münasibət öyrənmək mümkün olmadı. Hər halda, parodiya olunan spiker Oqtay Əsədovun bunu necə qarşıladığı maraqlı olardı. Deputatların bu parodiyanı necə qarşıladıqlarını öyrənmək üçün "Planet Parni iz Baku" teatrının bədii rəhbəri Tahir İmanovla əlaqə saxladıq. T.İmanovla aramızda belə bir dialoq oldu:

**- Tahir müəllim, sizi "Yeni Müsavat" qəzetindən narahat edirik.**

- Hardan?

**- "Yeni Müsavat"dan.**

- Hə, buyurun.

**- Sizin deputatları parodiya etməyiniz...(sözümü kəsir)**

- Mən müxalifət qəzetlərinə müsahibə vermirəm.

**- Niyə?**

- Demokratik ölkədə yaşayırıq, hansı mediaya istəyirəm müsahibə ora verirəm.

**- Demokratik ölkələrdə müxalifət qəzetlərinə müsahibə verirlər.**

- Qardaş, danışmaq istəmirəm də. Oldu?

**- Oldu, uğurlar.**

Modern.az saytı isə parodiya olunan bəzi deputatlar arasında sorğu keçirib. **YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov** siyasətçilərin parodiya edilməsini normal qarşıladığını deyib: "Həmin videoya mən də baxdım. Orda qəbahət heç nə yoxdur. Siyasətçilərin parodiya edilməsinə normal baxıram. Məni də parodiya ediblər. "Şən və hazırcavablar" klubuna etiraz etmirəm. Bu, onların işidir".

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə də parodiya edilməsini qəbahət hesab etmir:** "Onların vəzifəsi güldürməkdir. Ona görə də necə gülmək, necə güldürmək ssenarisini seçib özləri müəyyən edirlər. Bu, parodiya olunanlardan birinin xoşuna gələ bilər, digərinin xoşuna gələ bilməz. Bu, onların işidir. Heç kimi sifarişlə güldürmürlər və heç kim də sifarişlə gülmür. Ona görə də parodiya edilməyimə normal yanaşıram".

**Zahid Oruc isə parodiya məsələsində yaradıcı adamlara əmr verməyin doğru olmadığını düşünür:** "Hər hansı bir şəxsin parodiya edilməsinə normal yanaşıram. Düşünürəm ki, heç bir halda ona qeyri-adi baxılmamalıdır. Ümumilikdə dünyada geniş yayılan təcrübədir. Bizim "Şən və hazırcavablar klubu" bu cəhətdən də düşünməyə çalışır.

Onların fəaliyyətinə hər zaman diqqətlə baxmışam. Oradakı Zahid Oruc gerçəkdənmi parlament üzvü olan və siyasi bir obrazda çıxış edən insanın həqiqi sifətidir? Bunu söyləmək çox çətindir. Etiraf edim ki, sadəcə, səs tonu, forma, quruluş məsələlərində diqqətli olmağa çalışıblar. Hər kəs şahiddir ki, Zahid Oruc danışarkən özünəməxsus bir sistem seçir, onun fikirlərinin bir süjet xətti, hədəfi olur. Təbii ki, gerçək Zahid Orucun özünəməxsus leksikonu və fikir quruluşu var.

Mürəkkəb olan məsələləri buraxıb yalnız bir mənanın üzərində qərarlaşmaq və tamaşaçını, sadəcə, buna köklamək bir bacarıqdır. Hesab edirəm ki, yaradıcı insanlara əmr verməyə olmaz. Onlara məzəmmətlə narazılıq etmək, hansısa istədiyin şəkilə salmaq tamam başqa bir yaradıcılıq növü olardı. Lakin parodiya olunmağımdan qəti şəkildə heç vaxt narazı qalmamışam".

❑ **Emil SALAMOĞLU**

# Məmmədovlar Kremlin iqtidar əleyhinə projesində?!


Abbas Abbasov


Ziya Məmmədov

# Ziya Məmmədovun qürubunun şok səbəbi

## Nəqliyyat nazirinin prezident seçkisi ərəfəsi "üsyançı" Abbas Abbasovla telefon danışıqlarını hakimiyyət deşifrə edibmiş; onun qardaşının isə Putinin ən yaxın adamı ilə biznes qurduğu ortaya çıxıb; Məmmədovlar iqtidarın inamını itirdiklərini ört-basdır etmək istəyirlər

**Nəqliyyat naziri Ziya Məmmədovun başı üzərindəki qara buludlar getdikcə daha da sıxlaşır. Nazirin deputat qardaşının oğlunun adının avtoşluqda və "Yeni Müsavat" əməkdaşının döyülməsində sifarişçi kimi hallanması, biznesinin böyük bir hissəsini təşkil edən neft-qaz yataqlarının hasilatında böhran yaranması, o cümlədən Bakının girişimdə tikdirdikləri göydələnlərin ("Şamaxinka" deyilən ərazidə) satılmasında ciddi əngəllərin yaranması, oğlunun rəhbərlik etdiyi şirkətin isə qadın əməkdaşının müəmmalı şəkildə öldürülməsi Məmmədovların "qara zolaq"da olduğunu göstərən faktların yalnız bir qismidir.**

İndi isə Z.Məmmədovu bitirə biləcək daha ciddi informasiyalar dövriyyəyə buraxılıb. Söhbət ötənilki prezident seçkiləri ərəfəsində nəqliyyat naziri ilə Azərbaycanın baş nazirinin keçmiş 1-ci müavini Abbas Abbasov arasında olan sıx təmasdan gedir.

Nəqliyyat nazirinin Kremlin xeyir-duası ilə Moskvada yaradılan Rusiya Azərbaycan Təşkilatları İttifaqının (RATI) rəhbəri A.Abbasovla əlaqələrinin olduğu yeni fakt deyil və "Yeni Müsavat" da seçki ərəfəsi bu barədə bir neçə dəfə yazıb. Amma indi əsas xəbərlər ondan ibarətdir ki, hakimiyyətə qarşı sərt üslub seçən, iqtidar təmsilçilərini "tezliklə gedəcəklər" kimi ifadələrlə hədələməkdən belə çəkinməyən Abbas Abbasovun nəqliyyat naziri ilə o zamankı telefon əlaqələri deşifrə olunub. Yəni Məmmədovların qürubunun əsas səbəbi olaraq onların hakimiyyətə qarşı dönüklüyü göstərilir.

**Bu barədə "Unikal" qəzeti yazı dərc edib. Sitat:** "Abbas Abbasov Rusiyada yaradılan Rusiya Azərbaycan Təşkilatları İttifaqının (RATI) əsas memarlarından biri sayılırdı. Bu ittifaqın yaranma səbəbi isə onun vasitəsilə Moskvanın ölkəmizin iç işlərinə siyasi müdaxiləsi olaraq göstərilirdi. Məhz bu səbəbdən Ziya Məmmədovun həmin siyasi baxımdan gərgin aylarda, Abbas Abbasovun Rusiya hakimiyyətinin siyasi maraqları prizmasından çıxış etdiyi və iqtidar içindəki bəzi dairələrə davamlı tənqidi ismarışlar göndərdiyi dövrdə birbaşa təmas qurması suallar yaradır. Bildirildiyinə görə, nəqliyyat nazirinin sabiq baş nazir müavini ilə həmin təmasları deşifrə edilib və elə bu səbəbdən də hazırda Məmmədov hakimiyyət daxilində olduqca çətin anlar yaşayır. Burada daha bir maraqlı məqam isə Məmmədovla Abbasovun ayrı-ayrı vaxtlarda verdikləri açıqlamalarda üst-üstə düşən bir məqamdır. Belə ki, ötən ilin yayında Abbas Abbasov müsahibələrində onunla hakimiyyət arasında münasibətləri pozmağa çalışan qüvvələrin varlığından bəhs edirdi. Ziya Məmmədov isə bu yaxınlarda qəzetimizə açıqlamasında özü və yaxınları barədə mətbuata sızan kompromatlarda bəzi adamların maraqlı olduğunu demiş və heç bir konkret ünvan göstərməmişdi.

Bu iki açıqlamadan belə başa düşmək olar ki, sabiq baş nazir müavini ilə nəqliyyat naziri özlərinin hədəfə gəlməsində iqtidardakı müəyyən çevrələrdən şübhələnirlər və o ehtimal da istisna deyil ki, əslində hər iki şəxsin gileyləndiyi çevrələr eyni dairələrdir.

Hələ aylar əvvəl KİV-də belə iddialar dolaşırdı ki, RATİ-nin aparıcı simalarından biri "AST" şirkətlər qrupunun rəhbəri Telman İsmayılovdur və onunla Ziya Məmmədovun dostluq münasibətləri var. Eyni zamanda onların ortaq biznesinin olduğu da bildirilirdi. İddia edilirdi ki, Telman İsmayılovla dostluq Ziya Məmmədovla RATİ-nin sədri olmuş baş nazirin sabiq müavini Abbas Abbasov arasında da isti münasibətlər yaradıb. Sonradan isə Məmmədov artıq Abbasovla birbaşa təmaslara keçib, onunla telefon bağlantıları quraraq hansısa dialoqdan çəkinməyib".

**"Unikal" nəqliyyat nazirinin deputat qardaşı Elton Məmmədov barədə də ilginc məlumat dərc edib. Məlumatda deyilir ki, deputat Məmmədov da Çeçenistanda biznes qurub:** "Onun bunu nazir qardaşından xəbərsiz etdiyini düşünmək sadəlövhlük olardı. Hazırda Məmmədovlarla Çeçenistan prezidenti Ramzan Kadırov arasında yaxşı işgüzar münasibətlərin olduğu bildirilir.

Ramzan Kadırovun isə Rusiya prezidenti Vladimir Putinlə hədsiz dərəcədə yaxınlığını bilməyən yoxdur. Kadırov Kremlin sahibinə hədsiz sədaqəti ilə bilinir və qeyd olunur ki, bu səbəbdən Putin ona yüksək etimad göstərir. Məmmədovların Çeçenistana sərməyə yatırmaları isə onların Kadırov vasitəsilə Putinlə yaxınlaşmaq cəhdlərinin təzahürü kimi dəyərləndirilir".

**Qəzet yazır ki, məhz RATİ ilə bağlı proseslərin gücləndiyi vaxtda - ötən ilin mayında Çeçenistan Respublikasının Nəqliyyat Və Rabitə Nazirliyi Bakı şəhəri ilə Qroznı arasına beynəlxalq avtobus reyslərinin açılması üzrə işlər apardığı barədə məlumat yaydı:** "Həmin vaxt ölkənin nəqliyyat və rabitə naziri Ramzan Çerxiqova bildirmişdi ki, əsas diqqət Çeçenistan Respublikasının nəqliyyat vasitələrinin keyfiyyətinin artırılmasına, xidmətin keyfiyyətinə və sərnişinlərin təhlükəsizliyinə yönəldilib. Bununla əlaqədar yeni "Fort Tranzit", "MAN" və "PAZ" markalı avtobuslar alınıb. Prosesin digər tərəfində bizim Nəqliyyat Nazirliyinin dayandığını söyləmək yəqin artıq olardı. Sonradan bu istiqamətdə hər hansı yenilik baş vermədi, belə güman etmək olar ki, bu, Məmmədovların "Çeçenistan açılımı"nın iflası ilə bağlıdır".

Beləliklə, bütün bu iddialardan görünən budur ki, nəqliyyat nazirinin Kremllə və ona yaxın olan Abbas Abbasovla sıcaq ilişgilər qurmaq üçün kifayət qədər cəhdləri və səyləri olub. İstisna deyil ki, Məmmədovların özləri və bizneslər ətrafında son aylarda cərəyan edənlər də məhz belə səylərin və cəhdlərin deşifrə edilməsi ilə birbaşa bağlıdır".

Bu informasiyaların məhz indi ortaya çıxması da təsadüf deyil. Çünki Məmmədovlar indi barələrində yazılan yazılara "bizi gözləri götürmür" deyə don geyindirirlər. Bununla da əslində hakimiyyətin gözündən və inamından düşdüklərini ört-basdır etmək istəyirlər. Amma çifayda. Bu xəbərin indi yayılması da Məmmədovların sonunu gətirən qərarın yaxın günlərdə veriləcəyinə işarədir. Gözləməyə dəyər...

❑ **Xəbər xidməti**

# Köçkün oliqarxın villası



Xalid KAZIMLI

**Bilənlər bilir ki, amerikalı iş adamı Bill Qeytsin 50-60 milyard arasında halal pulu var. Adam yoxdan bir şirkət yaradıb, heçdən bir texnologiya icad edib, dünyanı dəyişdirib, Yer üzünün bütün insanlarının işini asanlaşdırıb, bəşəriyyətə töhfə verib və milyardlar qazanıb - bal tutarkən barmağını yalayan və buna qane olan arıçılar kimi.**

Hazırda bu şəxs qazandığı qədər də xərcləyir, dünyanın dörd bir yanında yaşayan kimsəsizlərə, məktəbsizlərə hər il yüz milyonlarla ianə verir. Dövlətə də milyonlarca dollar vergi ödəyir, hər sent hesabda, nəzarətdədir.

Amma o boyda varidatın yiyəsi özünə 4,5 milyon dollara villanı Azərbaycandakı bir İH başçısı qədər rahatlıqla almır. İstəsə yüzünü birdən alar, amma görməmişlik eləmir, ehtiyacına uyğun olaraq alqı-satqı qərarları verir.

Meksikalı maqnat Karlos Slim də elədir, Uorren Baffet də, digər dünyaca ünlü milyarderlər də.

Bunlar və minlərlə başqa milyarder və milyonçular *("Forbs" dərgisinin siyahısına düşən və düşməyən)* bu cür bahalı daşınmaz əmlak alanda medianın diqqət dairəsinə düşürlər. Hamı da buna təbii hal kimi yanaşır.

Amma işə bax ki, rəsmi milyarderin olmadığı, rəsmi milyonçuların isə barmaqla sayıldığı ölkəmizdə orta ranqlı məmurlar belə milyarderlərə layiq məbləğ və məzənnədə alış-veriş edirlər, ancaq medianın bu barədə yazmasını istəmirlər. Hətta bunu "heç kəsə dəxli olmayan alqı-satqı" adlandırırlar.

Məsələn, Şuşa rayon İH başçısı Bayram Səfərov 4,5 milyona aldığı *(yaxud da özü demişkən, "barter etdiyi")* villadan danışarkən faktı təkzib edə bilməyərək deyir: "Belə bir villa var, ya yoxdur, kimə nə dəxli var ki? Siz bir paltar və ya ayaqqabı alanda mənə aidiyyəti olurmu?"

Əlbəttə, kimsə 4.5 milyona paltar və ya ayaqqabı alsa, bu diqqət cəlb edər. Amma ayaqqabıyla möhtəşəm villa eyni şey deyil. Ən azı qiymətdə bir neçə milyonluq fərq var.

Təbii ki, biz Bakının dörd bir yanında, şəhərətrafı qəsəbələrdə, ölkənin yaşıl rayonlarında, dünyanın dilbər guşələrində oliqarxlarımıza məxsus 4-5 milyonluq *(hətta daha baha)* villaları bir tərəfə qoyub, adi bir İH başçısının ucuza aldığı villaya fokuslaşmalı deyilik. Çünki o, varidatının miqyasına görə bu ölkənin varlı-hallı adamlarının ilk "yüzlüyü"nə, bəlkə də "beşyüzlüyü"nə düşməz.

Sadəcə, adamı dilə-dişə salan bir neçə səbəb var. O, məcburi köçkün rayonunun, torpaqsız rayonun rəhbəridir - bir, o boyda varidat barədə elə danışır ki, sanarsan, gündəlik tələbat malı alıb - iki. Üçüncüsü də, Səfərov özünü aldığı villanı hansı pulla tədarük etdiyinə dair açıqlama verməyə zorunda saymır.

Əsas məsələ də budur. Hər kəs istədiyi qiymətə, zövqünə, maddi imkanına uyğun olaraq hər şey *(bahalı villa, super maşın, yaxta, iri iaşə, xidmət, ticarət, istehsal obyekti və s.)* ala bilər. Amma Baffetin, Qeytsin ölkəsində, digər mədəni və hüquqi dövlətlərdə bu kimi hallarda gəlir deklarasiyası təqdim edir, vəsaitin qaynağını, hansı yolla qazanıldığını göstərirlər.

Bu ölkədə isə nə Bayram Səfərov, nə də digər məmur-oliqarxlar belə bir şey etmirlər, etməzlər, edə bilməzlər. Heç onlardan bunu tələb edən də yoxdur.

Düzdür, ölkədə Baş Prokurorluğun nəzdində Korrupsiyaya Qarşı Mübarizə İdarəsi var və bu idarənin funksiyası bu kimi halları araşdırmaqdır, ancaq o da bəllidir ki, ölkəmizin "antikorrupsiya mübarizləri" əsasən onuncu dərəcəli müəssisələrin müdir müavinlərinin, bələdiyyə sədrlərinin qanunsuz əməllərini ifşa etməklə məşğuldurlar, əlləri haram milyonlarla oynayan məmurlarla işləri yoxdur.

Bu kimi korrupsiya barədə tambur çalan bariz faktları görməzliyə vurandan sonra qanunçuluqdan, dövlətçilikdən, hüququn aliliyindən danışmaq absurd işdir. Kasıb-kusubu, yetim-yesiri yazılmış və yazılmamış qanunlarla, mafiya qaydalarıyla boğmaq asandır, çətin olan budur: "bu mənəm, burdayam, yaxşı eləyirəm" deyən korrupsioneri cəzalandırmaq.

Buyursunlar, xalqın cibini, dövlətin büdcəsini talamaq hesabına milyonçu olan, Qeytslə eyni şəraitdə yaşamaq istəyən və buna nail olanları ifşa etsinlər, camaat da desin, barəkallah.

YENİ MÜSAVAT
N 189 (5898) 26 iyul 2014

# "İstəyərdik ki, dini bilən adam bu komitədə rəhbər olsun"

**Hacı Qamət:** "Mollalar məclislərdə vəhhabi söhbəti aparır, sələfilərə qarşı nifrət oyadır, onlardan düşmən obrazı yaradırlar"

**"Əbu-Bəkr" məscidinin imamı Hacı Qamət Süleymanov "Yeni Müsavat"ın suallarını cavablandırıb. Hacı Qamət Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə YAP-çı deputat Mübariz Qurbanlının sədr təyin edilməsi, Sabirabadda saqqalı qırxılan sələfi, Fələstində müsəlmanların öldürülməsi, Suriya və İraqda döyüşlərin getməsi haqda danışıb.**

***- Hacı, dini komitəyə Mübariz Qurbanlının rəhbər gətirilməsini necə qarşıladınız?***

- Bu komitəyə bir sədr lazım idi. Belə məsləhət görüblər ki, onu təyin etsinlər. Əslində bu komitə dövlət qurumudur, dini qurum deyil. Amma əlbəttə ki, yaxşı olardı bu sahəyə dini cəhətdən məlumatlı bir adam təyin edilsin. İndi biz bilmirik ki, Mübariz Qurbanlı nə dərəcədə dini sahəni yaxşı bilir. Hər halda, yanında köməkçiləri olacaq və ona istiqamət verəcəklər.

Gözləyək işləsin, görək nə olur, ondan sonra qiymət vermək olar. Görünür, ondan əvvəlkilər yaxşı iş apara bilməyiblər ki, vəzifədən azad olunublar. İndi biz də istəyərdik ki, dini bilən adam bu vəzifədə olsun. Amma yenə də deyirəm ki, dövlət qurumu olduğu üçün dindar olmayan adam da dini komitəyə rəhbər gətirilə bilər. Ona görə də dövlət adamını rəhbər gətiriblər, görəcəyi işə baxacağıq.

***- Bəs Mübariz Qurbanlıya təklifləriniz olacaqmı, sələfilərlə işləmək istiqamətində bir çağırış edəcəksinizmi?***

- Bunu zaman göstərəcək. Əgər Mübariz Qurbanlı bizi qəbul etsə, söhbətə çağırsa heç bir problem görmədən gedərik. Sələfilərin bu günə kimi dini idarə ilə problemi olmayıb. Yeni rəhbər də dəvət etsə, heç nədən çəkinmirik, gedib müzakirə edərik, sözümüzü deyərik. Bizim dini komitə ilə hər hansı problemimiz yoxdur. Ümid edirik ki, bundan sonra da hər şey yaxşı olacaq.

***- Hacı, az əvvəl Sabirabadda sələfinin saqqalının qırxılması geniş müzakirə olundu, sizcə, bu, təxribat idi, yoxsa əhali qəzəblənmişdi?***

- Sabirabadda baş verən həmin hadisə təsadüfə oxşamır. Sələfinin üzərinə gedənlər arasında hazır olanlar var idi ki, gəlmişdilər. Bu, təxribata oxşayırdı. Mən hadisədən sonra o qardaşla görüşdüm. Mənə elə gəlir ki, ona qarşı bu hadisənin səbəbləri var.

Bu dəqiqə məclislərdə, yas mərasimlərində mollalar şəhadətdən, namazdan söhbət etmirlər. Onlar insanlara ibadəti, namazı öyrətməkdənsə vəhhabilikdən danışırlar. İnsanlarda sələfilərə qarşı nifrət oyadırlar, aqressivlik yaradırlar. Sələfilər haqda olmayan əməllərdən söhbət edirlər. Bu da istər-istəməz sünni-şiə arasında bir aqressivlik yaradır. Sələfidən düşmən obrazı yaratmağa çalışırlar. Bu da psixoloji problemi olanlara və başqa qruplaların maraqları ilə hərəkət edənlərə təsir göstərir.

***- Doğrudanmı sələfilər maşınlarla Sabirabada yürüş etmişdilər?***

- Bəli, məndə əvvəldən bir məlumat var idi. Təbii ki, onlara getməməyi tövsiyə etdim. Biz fitnə yaratmaq istəmirik və buna qarşıyıq. Odur ki, qardaşlara çağırış etdim getməsinlər. Ancaq müəyyən sayda maşınlarla gedənlər olmuşdu.

Əgər çoxlu sayda adam getsəydi, sünni-şiə münasibətlərinə zərbə olardı. Hətta adi adamlar da özlərindən asılı olmayaraq həmin videoya baxıb qəzəblənirdilər. Çünki 200 nəfər bir sələfinin üzərinə töküləşüb. Ona görə də daha çox təxribata oxşayır. Sələfiyə hücum edən adamlar hazır gəlmişdilər. Mən bunu bütün Sabirabad camaatına şamil etmirəm.

Bizə həmin hadisədən sonra Sabirabaddan məktublar da gəlmişdi, baş verənləri pisləyirdilər. Yəni belə xoşagəlməz hadisələr baş verməməlidir, təkrarlanmamalıdır. Bu işi görən həmin şəxs də qanunla cəzasını almalıdır.

Bura İraq, Suriya deyil. O ölkələrdə qarşıdurmalar adi hala çevrilib. Biz imkan verə bilmərik ki, fitnə yaratsınlar, qızışdırsınlar. Mən həmin vaxt maşınlarla getmək istəyənlərə də çağırış etdim ki, getməsinlər. Düzdür, gedənlər də olmuşdu. Ancaq biz Azərbaycanda yaşayırıq, olmaz ölkədə qarşıdurma yaratmaq.



**"Sabirabadda baş verən hadisə təxribat idi və o adamlar hazır gəlmişdilər, maşınlarla gedən qardaşlara da çağırış etdim ki, getməyin, fitnə qızışmasın"**

***- Bəs bu təxribatı kimlər təşkil edə bilər?***

- Biz həmin vaxt bu məsələyə toxunduq, fikrimizi dedik. Sabirabadda camaat qızışdırılmışdı. Ola bilsin ki, bunu edənlər xarici, yaxud daxili qüvvələrdir. Dövlət içində fitnə yaratmaq istəyirlər, ara qarışdırmağa çalışırlar. Buna heç cürə yol və imkan verməK olmaz.

Artıq Ramazan ayı bitir. Millətimizi təbrik edirəm. Biz istəyirik ki, sakitlik olsun, nifaq salınmasın, fitnə yaradılmasın. Kimlər təxribat etmək niyyətindədirsə, bunu nə məqsədlə edirlərsə bilmirik. Ancaq çalışmaq lazımdır ki, insanlar təxribata aldanmasınlar.

***- Hacı, Ramazan ayı deməkən, müsəlmanların müqəddəs ayında Fələstində insanlar, körpələr öldürülür. Niyə Suriyada, İraqda döyüşənlər Fələstinə yardıma getmirlər?***

- Əvvəla, biz dua edirik. Allah Fələstindəki məzlumlara kömək olsun. İndi Türkiyədə İsrail malları boykot olunur. Şəriət baxımından bu addım düz gəlmir. Çünki peyğəmbərlər belə formada zülmə etiraz etməyiblər.

Onlar Allaha sığınıblar. Ona görə bizim dualarımız, aminlərimiz ən böyük silahdır.

İraq və Suriyaya gəlincə, fərqli vəziyyətdir. Orda döyüşənlərin hərəsinin öz komandirləri var, qruplara bölünüblər, qarşıdurmalar indi də davam edir.

İŞİD çox şişirdilmişdi. Sonra məlum oldu ki, döyüşənlər əsasən İraqdakı sünnilərdir, hər şey İŞİD-lə bağlı aydınlaşdı. Məlum oldu ki, tək İŞİD deyil, bu təşkilat çox şişirdilib. Bu mənada onların Fələstinə köməyə getməsi mümkün deyil. Ayrı-ayrı qruplara bölünüblər, Fələstin isə dünyada başqa bir oyundur.

❑ **Emil SALAMOĞLU**

## Deputat şeyxə etiraz etdi

**"Dünyanın hər yerində bayram namazı 28 iyuldadır. Yalnız İranda və Azərbaycanda 29 iyulda təyin olunub. Deyəsən, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin fətvası QUM saatına baxılaraq yazılıb, Şamaxı Rəsədxanasının teleskoplarının da gözünü QUM tutub". Modern.az xəbər verir ki, bunu özünün facebook səhifəsində deputat Fazil Mustafa yazıb.**



**Fazil Mustafa**

O bildirib ki, Cənubi Azərbaycanla yanaşı, Şimali Azərbaycan da İran dininin mənəvi müstəmləkəsi olaraq qalır. "Nəinki Güneyimiz, elə Quzeyimiz də hələ ki İran Dininin mənəvi müstəmləkəsi olaraq qalır. Kim istəyirsə, gedib öz namazını İran ayətullalarının arxasında qılsın. Müstəqil bir dövlətin İranın kopyaçısına çevrilməsi utancverici bir haldır.",-deyə F. Mustafa etiraz edib.

---

**Bəli, elə həqiqətən də ağır durumdur. Psixoloji cəhətdən ağırdır. Öz torpağında girov götürülən azərbaycanlılar Ermənistanda öldürülür, Minsk Qrupunun ABŞ-dan olan həmsədri sosial şəbəkələrdə yazı yazır, Rusiya isə ermənilərin tutduğu azərbaycanlıların arasında Rusiya vətəndaşının olmadığını deməklə işini bitmiş hesab edir.**

**Hüseynbala SƏLİMOV**



# Gerçəklikdən qaçmaq üçün...

Yazı adamı üçün xüsusən ağırdır. Adam bu vəziyyətdə bir çıxış yolu görür-gerçəklikdən qaçmaq... Nədən və necə yazmaq meyarlarının itdiyi ölkədə biz başqa yol tapmaqda acizik...

O gün mətbuat günü ilə bağlı rəsmi kanalda veriliş verirdilər. Nə qədər göz gəzdirdim, tanış sifət görmədim. Əvəzində xeyli yeni titul haqda eşitdim. Sən demə, bu ölkədə "ağsaqqal jurnalist" titulu da varmış.

Amma mənim diqqətimi başqa detal cəlb etdi. Çıxışçılardan biri dedi ki, son illərdə görülmüş müsbət işlərin sayəsində mətbuata peşəkarların axını güclənib.

Bu, mənə maraqlı göründü. Əcəba, jurnalistikanın demək olar ki, məhv olduğu bir dönəmdə nə axındır bu elə? Mən bu sualın cavabını bilirəm. Sovet vaxtında əsl jurnalistika yox idi, amma peşənin "dəyəri" həddindən artıq böyük idi. O vaxt jurnalistika vəsiqədən ibarət idi. Və bu vəsiqənin bir xeyli imtiyazı vardı. İxtisas özü isə hüquqdan sonra ikinci yerdə gedirdi...

Burada yadıma bir detal düşdü. 1993-cü ilin yayı, böhranlı günlər idi. AXC hakimiyyətdən təzə getmişdi. Bir tanış jurnalistə rast gəldim. Ovqatı yaxşı idi, dedi ki, mənim dövrüm gəlir... Onun nə demək istədiyini başa düşmək elə də çətin deyildi. Bu, elə bir dövrün başlanğıcı idi ki, yazmamaq, yaza bilməmək olardı, amma vəsiqən olmalı idi, çünki jurnalisti artıq qonorar deyil, vəsiqə və imtiyaz dolandıracaqdı...

İndi belə jurnalistikanın triumfudur. Bizə isə kənara çəkilmək, ya da bunlara baxıb əlimizi yelləmək qalır...

Son vaxtlar təsəllini ədəbiyyatda tapıram. Amma bir yazar kimi yox, oxucu kimi. Özü də bizim ədəbiyyatda yox, dünya ədəbiyyatında. Bizim ədəbi mühitdən müəyyən gözləntilərim var. Amma "Daş yuxular" bu gözləntilərimi də dəfn etdi. Bu roman mənə rəsmi ədəbi mühitə qarşı müxalifətdə olan ədəbiyyatın evolyusiyasını göstərdi.

Yazının əvvəlində öz torpaqlarında girov götürülən azərbaycanlıların öldürülməsini qeyd etdim. İndi özünüz düşünün və nəticə çıxarın. Erməniləri sevmək mümkündürmü? "Daş yuxular" isə bizə belə sevgini aşılamaq istəyirdi.

O vaxt təbii ki, bu romanın müəllifinə qarşı basqılrı təqdir etmirdim. Ən azı ona görə ki, söz və ifadə azadlığı deyilən bir şey var. Qoy, yazsınlar. Bəlkə bir gün özləri hansı cəfəngiyatı yazdıqlarını başa düşəcəklər?!

Bu sətirləri yazan zaman rus yazıçısı Vasiliy Şukşinin 85 illik yubileyi qeyd edilirdi. Bəli, gözəl aktyor, rejissor, ssenarist və yazıçı. Mən onu təsadüfi bir hadisə kimi xatırlamadım. Müdrik insanlar başa düşəcək məni...

Bəli, bizim Azərbaycanın da Şukşini olmalı idi... Amma ola bilmədi. Ona görə ki, bizim yazıçılarda Azərbaycan sevgisi çatışmadı. Məlum oldu ki, bəzi yazıçılarımız on illər ərzində ürəklərində tamam başqa sevgi bəsləyirlərmiş...

Əvvəl burada Şukşini də gerçəklikdən qaçmaq üçün xatırladım. Amma bir də gördüm ki, o, məni əksinə, gerçəkliyə doğru çəkir...

Gerçəklik isə yamandır. Bu neçə ildə gəldiyim qənaət var. Bilirsiniz Azərbaycanda nə çatışmır? Bir daha deyirəm: əsl Azərbaycan sevgisi... Bəli, həqiqətdə olan, reallıqdakı Azərbaycana olan sevgi. Bizim böyüklərin heç nəyə bir problemi olub: onlar özlərinin Azərbaycanda sevilə biləcəklərinə inanmayıblar...

V.Şukşinin də həyatı ağır olub. İstədiklərinin çoxunu reallaşdıra bilməyib. Di gəl, Rusiyaya sevgi, rus mühitinə sevgi onu bir an tərk etməyib...

Çox maraqlıdır, A.Tarkovski rejissor Şukşin haqqında yüksək fikirdə olmayıb. Hətta bir dəfə deyib ki, Şukşin, sadəcə yaxşı aktyor idi...

Bunu da təbii qarşılamaq lazımdır. Kinoya yanaşmalar fəqrli idi. Bir lirik və realist yanaşma vardı, bir də sürrealist səpkili kino vardı. Təbii ki, əgər bizim "diaqnoz"umuz doğrudursa... Ona görə belə deyirəm ki, A.Takovskinin kino dəst-xəttini, üslubunu müəyyən etməkdə, təsnif etməkdə acizəm...

Amma onların hər ikisində Rusiya ağrısı vardı. Bizdə isə məhz elə bu çatışmır - Azərbaycan ağrısı...

YENİ MÜSAVAT
N 189 (5898) 26 iyul 2014

# "Həbslər gəncləri islah etmir, əksinə..."

## Elman Abbasov: "Bu cür ittihamlar artıq ictimaiyyətdə kinayə hissi yaradır"

**Ümid Partiyası sədrinin informasiya və mətbuat üzrə müavini Elman Abbasov gənc fəal, blogger Fərəc Kərimovun həbsinə münasibət bildirib.**




"İyulun 23-də səhər saatlarında Müsavat Partiyasının üzvü, gənc blogger Fərəc Kərimov mülkü geyimli şəxslər tərəfindən başına qara torba keçirdilərək , naməlum istiqamətə aparılıb. Bir gündən artıq müddət keçdikdən sonra isə DİN onun həbsini təsdiqləyib təsdiqlənib. Onun cibindən narkotik aşkar olunduğu bildirilib.

Bundan əvvəl də bir sıra gənc siyasi fəallar və bloggerlər narkotik və başqa ittihamlarla həbs olunub.

Hesab edirik ki, Fərəc Kərimovun həbsi də siyasi sifarişli həbsdir. Digər siyasilərin həbsində olduğu kimi Sirac Kərimlinin də həbsi zamanı bütün prosessual qaydalar pozulub. Həbs olunması ilə bağlı bir gündən artıq müddət ərzində qohumlarına və vəkilinə məlumat verilməyib. Vəkili ilə görüşdürülməyib və həbsinin motivi barədə ictimaiyyətə dolğun məlumat verilməyib.

Ümumiyyətlə, bir həftə əvvəl heç bir siyasi proseslərə qoşulmayan qardaşının narkotiklə ittiham olunmasını bilən bir şəxsin cibində narkotik gəzdirməsi də absurd bir məslədir. Bununla da əməliyyatı icra edən qurumlar bir daha özlərini ifşa ediblər.

Hakimiyyət bu cür həbslərlə Azərbaycanın gələcəyi olan azadfikirli, fərqli düşüncəli gənclərin gözünü qorxutmağa, siyasi proseslərdən kənar saxlamağa çalışır. Bu cür ittihamlar artıq ictimaiyyətdə kinayə hissi yaradır. Aidiyyəti qurumları qınaq obyektinə çevirir, beynəlxalq qurumların hakimiyyətə qarşı təzyiqlərinin artmasına səbəb olur, dövlətin beynəlxalq ailəmdə imicinə ciddi ziyan vurur.

Qeyd edim ki, bu gün Azərbaycanın gələcəyi olan gəncliyin onsuz da böyük problemləri var. İşsiz-gücsüz, evsiz-eşiksiz, asudə vaxtını səmərəli keçirə bilməyən, istədiyi formada təhsili ala, yaşaya bilməyən, zamanında ailə həyatı qurmaq imkanı olmayan bir Azərbaycan gəncliyi var. Hakimiyyət nəzərə almalıdır ki, bu həbslər gəncləri islah etmir, əksinə onların həyatında böyük mənəvi travmalar yaranmasına səbəb olur.

Biz Ümid Partiyası olaraq bu cür həbsləri həmişə pisləmişik və münasibət bildirmişik. Partiya sədri, millət vəkili İqbal Ağazadə əqidəsindən, münasibətindən, partiyalılığından asılı olmayaraq gənclərin və siyasilərin qanunsuz, qeyri-qanuni həbsini dəflərlə parlamentin sessiyalarında qaldırıb, partiya həbs olunan siyasi məhbusların azadlığa buraxılması üçün hakimiyyətə müraciətlər ünvanlayıb.

Hesab edirik ki, hakimiyyət gənclərlə davranışda daha diqqətli olmalı, onları həbs etmək əvəzinə intellektual, dünya ilə ayaqlaşa bilən, azad düşüncəli Azərbaycan gəncliyinin yetişməsi üçün münbit şəraitin yaradılması istiqamətində təxirəsalınmaz addımlar atmalıdır. Əks təqdirdə, gənclərə qarşı aparılan repressiya siyasəti, basqılar, gənclər arasında ayrı-seçkilik gələcəkdə ölkənin inkişafında gəncliyin roluna çox ciddi zərbə vuracaq. Çünki yaşamaq üçün münbit şəraiti olmayan, dövlət qayğısından uzaq olan gənclik imkan tapan ilk fürsətdə ölkəni tərk edərək, qonşu ölkələrə, Avropaya üz tutur, gənclik dövrlərində fiziki və elmi potensiallarını getdikləri ölkələrə sərf etməli olurlar".

## Təbrik



***Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Müqəddəs Ramazan Bayramı münasibətilə xalqı təbrik edib.***

***Təbrikdə deyilir:***

***"Hörmətli həmvətənlər!***

***Sizi Müqəddəs Ramazan Bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm. Oruc tutan bütün müsəlmanların ibadət və dualarının qəbul olunmasını Allahdan diləyirəm!***

***İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq, qardaşlıq və bərabərlik yoluna dəvət edir. Müsəlmanlar bu ayda Allah və din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanır, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.***

***Hər şeydən əvvəl bu bayramın millətimizə, bütün dünyaya, insanlığa xeyir, bəşəriyyətə sülh gətirməsini, axan qanların Fələstində, Əfqanıstanda, Suriyada, Ukraynada durdurulmasını, işğal altında olan torpaqlarımızın azad olunmasını, xalqın azad, demokratik bir cəmiyyətdə xoşbəxt, əmin-amanlıq və firavanlıq içərisində yaşamasını, küskünlüklərin aradan qalxmasını, qardaşlıq və dostluq duyğularının qüvvətlənməsini arzulayıram.***

***İnanıram ki, bu müqəddəs bayram günlərində etdiyiniz dua və diləklər, saf niyyətlər Tanrı dərgahında qəbul olunacaq, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcək.***

***Bu əziz gündə bir daha sizi, dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımı bayram münasibətilə təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.***

***Allah orucunuzu qəbul etsin!***

***Ümid Partiyasının sədri***

***Millət vəkili***

***İqbal Ağazadə***






# Ümid Partiyasında psixoloji seminar keçirildi

**İyulun 24-də Ümid Partiyasının qərargahında Qadınlar Təşkilatının təşkilatçılığı ilə "Sağlamlığın alternativi yoxdur" aksiyası çərçivəsində psixoloji seminar keçirilib. Tanınmış psixoloq Fərqanə Nəcəfli partiya üzvlərini maraqlandıran sualları ətraflı cavablandırıb, faydalı məsləhətlər verib.**



Depressiya, stressin idarə olunması, suisid səbəbləri, ailə, qadın və uşaq problemləri haqqında geniş diskussiya aparılıb və cəmiyyətdə mövcud olan problemlər incələnib. Cəmiyyətdə maariflәndirmə işinin təşkilinə ciddi ehtiyac olduğu vurğulanıb.

Ümid Partiyası Qadınlar Təşkilatının sədri Səidə Bahadurqızı sağlam cəmiyyət naminə profilaktik tədbirlər baxımından partiyanın tədbirlərinə qatılan həkimlərin Hipokrat andına sadiq olduqlarının göstəricisi kimi dəyərləndirib və sağlamlığın keşiyində durduqlarını yüksək qiymətləndirib.

İştirakçılar silsilə tədbirin davam edilməsi fikrini də ifadə ediblər.

Qeyd edək ki, Qadınlar Təşkilatının təşəbbüsü ilə partiya üzvləri üçün "Sağlamlığın alternativi yoxdur" adlı sosial aksiyalara iyul ayından başlayıb.





# Ümid Partiyasının funksionerləri ölkənin cənubuna səfər ediblər

**İyulun 25-də Ümid Partiyası sədrinin birinci müavini Ənvər Ağazadə, sədrin təşkilati məsələlər üzrə müavini Bakir Həsənbəyli və təşkilat şöbəsinin sədri Təbriz Dadaşov ölkənin cənub zonasına səfər ediblər və yerli təşkilatların bələdiyyə seçkilərinə hazırlığı ilə bağlı yerində tanış olublar. Lənkəran şəhərində partiyanın Lənkəran və Astara rayon şöbə sədrləri və bələdiyyə seçkilərində namizəd olacaq üzvlərin iştirakı ilə müşavirə keçirilib. Müşavirədə yerli şöbələrin fəaliyyəti, bələdiyyə seçkilərinə hazırlığın vəziyyəti, görülən işlər və qarşıda duran vəzifələr geniş müzakirə olunub. Seçkilərə hazırlıqla bağlı gələcək fəaliyyət istiqamətində müşavirə iştirakçılarına tapşırıq və tövsiyələr verilib.**



Qeyd edək ki, səfər davam edir. Partiyanın cənub zonasında olan digər yerli şöbələrində də bu istiqamətdə görüşlər nəzərdə tutulub.

YENİ MÜSAVAT
N 189 (5898) 26 iyul 2014



# Tacsız icra başçısı

Zamin HACI
zaminhaci@gmail.com

**Bugünlərdə "Sevil" adında bir tikinti şirkətinin şefini tutublar. Azərbaycan üçün adi kriminal əhvalatlardan biridir əslində, diqqət çəkən heç zad yoxdur: kiməsə iş görməyə şərait yaradırlar, sonra həm işini, həm pulunu tutub əlindən alırlar, etiraz eləsə tuturlar, eləməsə dalına bir təpik vurub ölkədən qovurlar. Ancaq bu dəfəki əhvalatda həm gülməli, həm də rəmzi bir detal diqqətimi çəkdi.**

Sən demə, şirkətin rəhbəri vəhhabilərlə əlaqəli imiş, onlara yığışmaq üçün yer ayırırmış, hətta məscid tikdiribmiş. Hökumət "Hacı Aynur" kimi bizim standartlarda qəribə adlı bu şəxsi elə bu səbəbdən tutubmuş. Onu tutandan sonra şirkətə Hökməli ərazisində böyük yer ayrılmasını da araşdırıblar və yerli bələdiyyənin sədrini də sürüyüb idarəyə aparıblar. Mənim xoşuma gələn detal məhz bu məqamda idi. Hakimiyyət öncə zənn edib ki, bələdiyyə sədri də vəhhabilərə qoşulub. Təzəlikcə "Tərəqqi" medalı yapışdırdıqları sədrin bu cür əlləm-qəlləm yollara düşməsinə dilxor olduqları yerdə Abşeron Rayon İcra Hakimiyyətindən arayış verilib ki, sədr vəhhabi deyil, qorxmayın, torpağı sadəcə... tamahı üzündən verib! Pulla satıb. Bundan sonra sədri bir az sümürüb buraxıblar.

Çox gözəl, dərsliklərə salınası ibrətamiz əhvalatdır. Bu sistem tamahı bağışlayır, ideoloji "sapmaları" isə yox. Neçə illərdir görə-görə gəlirik. Məsələn, nazirlər olub yığdığı rüşvəti balta kəsməzdi, ancaq kiçik tənqidi söz deyənə qədər toxunan yox idi. Oğurluq, rüşvət, kriminal - gözümüz üstdə yerin var! Əqidə, məslək, ideologiya - vur əə, bunu!

Özü də ideologiyanın yönündə qəti fərq yoxdur. İstər liberalizm aşılayan qərblilər olsun, istər dini radikalizm yeridən cənublular - hər biri rejimə düşməndir.

Ona görə də işğal edilən rayonun icra başçısı 4 milyon yarıma villa alması xəbərinə "Burda nə var ki? Əcəb eləmişik! Özü də bu satış yox, barter olub" tipində arın-arxayın, lotuyana cavab verir. Kim bilir, bəlkə villa Vartanın imiş, Şuşaya gedəndə bizim icra başçısı ilə barter edibdir? Əhsən o zaman! Qoymayıb yağı düşmən villanı özü ilə aparsın. Yeri gəlmişkən, bizim 1 milyon qaçqınımız var. Villanı satsaq hərəyə 4 dollar düşür, bununla isə heç dəmiryolu vağzalının yanındakı iylənmiş kafelərdə bir qarın yemək almaq olmaz. İndiki halda qoy icra başçısı villada yaşasın, özü də üçrəngli bayrağımızla məsud yaşasın!

Sosial şəbəkələrdə bu məsələyə münasibət bildirməyin zamanıdır. Mən təklif edirəm xalqımızın dəyərli övladları Kəlbəcərdə əsir götürülən Dilqəm bəyin şəklini öz facebook divarlarından çıxardıb oraya Şuşa icra başçısının fotosunu qoysunlar. Dilqəm bəyi dəstəklədiyimiz yetər, indi Bayram müəllimə dəstək verməyin vaxtıdır. Qaçqın icra başçılarını gözümçıxdıya salmaq 38-42-ci şimal en dairələrinə də ayıb olur. Bəyəm onların başqa icra başçılarından nəyi əskikdir? Əlbəttə, rayonları yoxdur, bir az qəlbləri qırıqdır, nakamdırlar, ancaq qanun qarşısında hamı bərabərdir! Ona qalsa heç Puşkinə də Nobel mükafatı verilməyibdir, Brüs Liyə "kunq-funun tacsız kralı" deyirlər.

Üstəlik, camaat ölkənin 95 faizini uşaqlarının adına keçirdəndə yaxşı olur, bir qaçqın icra başçısı 4-5 milyona villa alanda düşmən? Biz elə Qarabağı da düşmənə bu cür lazımsız, qeyri-vətənpərvər münasibət üzündən verdik. Camaat oturub Bakıdan davaya baxırdı. Elə bil respublikanın qərbi ayrı dövlət idi, şərqi ayrı. Bir olmalıyıq! Bizə birlik gərəkdir, vətənpərvərlik gərəkdir! Bayram müəllim demişkən, "Allah hamıya villa qismət eləsin!".

Yazının sonunda bir daha ermənilərə üzümü tutub deyirəm: çıxın gedin! İki-üç yazı bundan qabaq xəbər göndərmişdim ki, işğal edilmiş torpaqlarımızdan rədd olsunlar, eşitdiyimə görə hələ tənqiddən nəticə çıxartmayıblar. Təkrar eləyirəm.

# Bakıda İsrail səfirliyi qarşısında aksiya keçirildi

## Polisin dağıtdığı aksiyada saxlanılanlar oldu; "Qüds və Qarabağ eyni dərd" adlı konfransın iştirakçıları isə cəmiyyəti yəhudi dövlətini boykota çağırdılar

**Beynəlxalq Qüds Günü ilə əlaqədar iyulun 25-də Bakıda İsrail səfirliyi qarşısında aksiya keçirilib. "Yeni Müsavat"ın məlumatına görə, aksiyanı Azərbaycan İslam Partiyası keçirib. Aksiya təxminən 10-15 dəqiqə çəkib. Səfirliyin qarşısında şüarlar səsləndirildikdən sonra polis müdaxilə edərək, aksiyanı dağıdıb. Bir neçə nəfər saxlanılaraq, Yasamal Rayon Polis İdarəsinin 26 və 27-ci polis bölmələrinə aparılıb.**




Keçirilən etiraz aksiyasına görə, politoloq Mayis Güləliyev 22-ci polis bölməsinə çağırılıb. O, "islamazeri.az" saytına məlumat verərək bildirib ki, onu icra katibi olduğu Vətən Blokunun Azərbaycan İslam Partiyasının qərargahında yerləşdiyi üçün polisə aparıblar.

Aksiyadan sonra Beynəlxalq Mətbuat Mərkəzində Azad Qarabağ Uğrunda Alyansın təşkilatçılığı ilə "Qüds və Qarabağ eyni dərd" adlı konfrans keçirilib. Tədbirdə siyasi xadimlər, millət vəkilləri, ictimaiyyət və media nümayəndələri iştirak ediblər. Çıxış edən Azad Qarabağ Uğrunda İslami Müqavimət Hərəkatının rəhbəri Rövşən Əhmədli bildirib ki, Beynəlxalq Qüds Günü əslində İslam günüdür. Bu gün dünyanın hər yerində olan müsəlmanlar istismarçı, zalım sionist rejiminə etiraz edirlər: "Düşünürük ki, bizim də keçirdiyimiz tədbirlər bu etirazların tərkib hissəsidir".

**Sonra çıxış edən DEVAMM rəhbəri Hacı İlqar İbrahimoğlu** qeyd edib ki, Mübarək Ramazanı ayının əsas mahiyyəti Allahın razılığını qazanmaqdan ibarətdir: "Mübarək ayın ən pik nöqtəsi isə müqəddəs Qədr gecələridir ki, həmin gecələrdən çıxan müsəlmanlar Qüds gününü qeyd edirlər, Qəzzada və İraqda baş verənləri, Xocalını və Qarabağı yada salırlar. Azərbaycan insanının birinci gündəmi Qarabağ olmalıdır. Bu ruhiyyə ilə toplanaraq Qarabağı azad etməyə çalışmalıdır".



**Çıxış edən deputat İlyas İsmayılov söyləyib ki, hər hansı bir problemi həll edə bilmiriksə, ən azından onu gündəmdə saxlamalıyıq:** "Qarabağ problemi Qüdslə eyni taleyi yaşayır. Artıq ATƏT kimi beynəlxalq təşkilatlar sözügedən problemləri həll edə bilmirlər. Çünki onların verdikləri qərarlarla bağlı öhdəlik yoxdur və yalnız tövsiyə xarakteri daşıyır".

**Vətən Blokunun icra katibi Mayis Güləliyev isə bildirib ki, Qüds Günü dünyanın bir çox ölkələrində qeyd edilir. Hətta İsraildə belə Qüds Günü ilə bağlı etiraz aksiyaları keçirilir:** "Təəssüflər olsun ki, Azərbaycanda buna imkan vermirlər. İsraili müxtəlif sahələrdə boykot etməyimiz mümkündür. Bu boykotlar iqtisadi-siyasi və digər sahələrdə özünü göstərə bilər. Hətta onların təşkil etdiyi tədbirlərdən nümayişkaranə şəkildə imtina etməliyik. Hər bir kəs öz bacardığı səviyyədə etiraz etməyə çalışmalıdır. Eyni halda sionizmlə mübarizə aparan qüvvələrə əlimizdən gələn bütün dəstəyi göstərməliyik".

**Sonra çıxış edən ilahiyyatçı alim Emil Rahiloglu isə zülmün dünyaya çatdırılmasında medianın rolundan danışıb:** "Media haqqı batil, batili isə haqq kimi dünyaya çatdırmaq qüdrətindədir. Bütün media orqanlarının başlıca şüarları dəqiq, vicdanlı və qərəzsizlikdən ibarətdir. Lakin təəssüflər olsun, ölkədəki bəzi media quruluşları bir sıra cinayətlərə don geyindirərək, haqq kimi təqdim etməyə çalışırlar".

❑ **Fərahim İLQAROĞLU**

# Aparıcı müxalifət partiyaları seçkidə iştirak etməyə bilər

## Demokratik düşərgədə inamsızlıq bələdiyyə seçkilərinə hazırlığa zərbə vurur

**İlin yeddinci ayını da bir neçə gün sonra başa vuracağıq və dekabrda keçiriləcək bələdiyyə seçkilərinə vaxt az qalıb. Lakin Azərbaycanda bələdiyyə seçkilərindən əsər-əlamət hiss olunmur, seçki mübarizəsinin heç mehi də əsmir. Deyəsən, heç kimin yadına düşmür ki, bu il Azərbaycanda da bələdiyyə seçkisi keçiriləcək. Nə cəmiyyətdə, nə siyasi partiyalarda seçki hazırlığı ab-havası yoxdur. Seçkilərə maraq o dərəcədə aşağıdır ki, ölkənin aparıcı müxalifət təşkilatlarının əksəriyyəti hələ bələdiyyə seçkiləri ilə bağlı qərar verməyib.**

**AXCP rəhbərliyi** bəyan edib ki, ölkədə normal seçki şəraiti yoxdur, bələdiyyələr icra hakimiyyətinin qapazaltısına çevrilib. Ona görə də bələdiyyə seçkilərində iştirak etmək seçki tamaşasına legitimlik qazandırmaqdan başqa bir şey deyil.

**Müsavat Partiyası** isə bələdiyyə seçkilərində iştirak etməklə barədə ilkin qərar versə də yekun qərarın qarşıdakı dönəmdə veriləcəyi bildirilib.

**Müsavat Partiyasının Divan üzvü İkram İsrafil** bildirdi ki, partiyada ümumi rəy iştirak etmək tərəfdarı olacaqsa, Müsavat Partiyası seçkidə iştirak edəcək. Ancaq bələdiyyə seçkilərinə qədər demokratik seçki şəraiti və bələdiyyələrin statusunun artırılması istiqamətində hakimiyyətin həyata keçirməli olduğu mühüm işlər var. Məhz bu addımlar atılarsa, bələdiyyə seçkilərinə siyasi qüvvələrdə ciddi maraq yaranar və normal seçki prosesi keçər: "Təəssüf ki, az vaxt qalmasına baxmayaraq həmin vacib addımlar atılmayıb. Bərabər rəqabət şəraitinin olmaması insanları, o cümlədən partiyalarda təmsil olunan insanları ruhdan salır. İnsanlarda seçkiyə, eyni zamanda bələdiyyələrə inamsızlıq mövcuddur. Ona görə də bələdiyyə seçkilərinə az vaxt qalmasına baxmayaraq ölkədə hələlik seçki əhval-ruhiyyəsi hiss olunmur.

Heç olmasa bələdiyyə seçkiləri demokratik keçirilsə, bələdiyyə üzvləri demokratik seçki ilə seçilsə cəmiyyətdə seçkilərə müəyyən qədər maraq yaranar".

**ADP sədri Sərdar Cəlaloğlu** isə seçkidə partiya kimi iştirak barədə qərarlarının olmadığını bildirdi. S.Cəlaloğlu qeyd etdi ki, bələdiyyə seçkilərində iştirak etmək istəyən ADP üzvlərinə fərdi şəkildə namizədliklərini irəli sürməkdə azadlıq verilib.

**AMİP-dən** də bildirildi ki, bələdiyyə seçkilərində iştirak və hazırlıqla bağlı qərar verməyiblər.

**Vətəndaş Həmrəyliyi Partiyası (VHP) mərkəzi icra aparatının rəhbəri Samir Əsədli partiyanın Siyasi Şurasının 2014-cü ilin dekabrında keçiriləcək bələdiyyə seçkilərində iştirak etməklə bağlı qərar qəbul etdiyini bildirdi:** "Artıq partiyanın bələdiyyə seçkilərində iştirakı ilə bağlı seçki qərargahı da formalaşdırılıb. Partiya sədrinin müavini Arif İsmayılbəyli seçki qərargahının sədri təyin edilib. Seçki qərargahının üzvləri də təyin olunub və qərargah artıq işə başlayıb. Hələlik hər bələdiyyəyə bir nəfər namizəd irəli sürməyi düşünürük. Lakin say bir qədər çox da ola bilər. Keçən dəfəki seçkilərdə ümumilikdə 800 nəfərdən artıq namizəd irəli sürmüşdük. Lakin çox təəssüf ki, seçki dairələrinin və icra hakimiyyəti orqanlarının yaratdığı əngəllər üzündən 150-dən bir qədər artıq namizədimiz qeydiyyata alındı, onlardan 115 nəfəri müxtəlif bələdiyyələrə seçildi. Ümid edirik ki, bu il keçən dəfə yaradılan problemlər yaradılmayacaq.

Məqsədimiz bələdiyyə seçkisində partiya olaraq tək iştirak etməkdir. Çünki bələdiyyə seçkiləri elə spesifik seçkidir ki, blok şəklində iştirak etmək problemlər yaradır. Ümumiyyətlə isə seçki dövründə müxalifət partiyaları arasında əməkdaşlığın tərəfdarıyıq".

**S.Əsədli Azərbaycanda bələdiyyə seçkilərinə cəmiyyətin, siyasi qüvvələrin ciddi maraq göstərməməsinin də problem olduğunu dedi:** "Bələdiyyələrə ciddi maraq olmaması seçki kampaniyasına mənfi təsir edir. Azərbaycanda təəssüf ki, bələdiyyələrin statusu, səlahiyyəti son dərəcə cüzidir. Bələdiyyələr faktiki olaraq icra hakimiyyətlərinin qapazaltı orqanına çevrilib. Bələdiyyənin elementar səlahiyyəti yoxdur ki, nəyisə həll eləsin. Belə olduğu üçün də vətəndaşda bələdiyyə seçkisində həm namizəd, həm də seçici kimi iştiraka maraq qalmır".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 189 (5898) 26 iyul 2014

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Ermənistandan həmsədrlərin son bəyanatına cavab: düşmən bütün cəbhəboyu güllə yağdırıb

**Azərbaycan Müdafiə Nazirliyi:** "Əsgər çatışmazlığından Ermənistan rəhbərliyi Rusiya və digər ölkələrdə yaşayan erməniləri, ikili vətəndaşlığı olan gəncləri də məhkəmə qərarı ilə məcburi qaydada orduda xidmət etmək üçün gətirir"

**Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində son sutka ərzində gərginlik nəzərəçarpacaq dərəcədə artıb. Azərbaycanın Müdafiə Nazirliyinin rəsmi məlumatına görə, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 52 dəfə pozulub.**



## Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülən Dilqəm Əsgərovun Rusiya vətəndaşı olduğu təsdiqləndi və Putinə müraciət edildi

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan və İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli və Qızılhacılı kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar. Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz də atəşə məruz qalıb. Füzuli rayonunun Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Aşağı Əbdürrəhmanlı, Qaraxanbəyli, Horadiz, Ağdam rayonunun Yusifcanlı, Baş Qərvənd, Tərtər rayonunun Çiləbürt, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və Xocavənd rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

**Xatırladaq ki, bundan əvvəlki iki gün ərzində ermənilər atəşkəsi üst-üstə 55 dəfə pozmuşdular. Bu mənada atəşkəsin pozulmasının intensivliyi göz qabağındadır. Ermənilərin yenidən fəallaşmasının səbəblərini Azərbaycan Müdafiə Nazirliyində də dəqiq bilmirlər. Mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı "Yeni Müsavat"a bildirdi ki, həqiqətən də son sutka ərzində düşmən tərəfdən nisbətən daha artıq güllə atılıb:** "Öndəki günlərə nisbətən çoxdur. Ermənilər vaxtaşırı belə təxribatlara əl atır. Bunun nə ilə əlaqəli olduğunu izah edə bilmirik. Bəlkə də nizam-intizam problemindən irəli gəlir". Amma bəzi müşahidəçilər düşmənin güllə yağışını həmsədrlərin son bəyanatına cavab da sayır.

**V.Dərgahlı Ermənistanda müharibə təlaşının olmasına da reaksiya verdi. Qeyd edək ki, erməni politoloqu Manvel Sərkisyan "Azərbaycan Rusiyadan silah alaraq bütün istiqamətlərdə hücum qüvvələri hazırlayır. Artıq Naxçıvanda hazır zərbə qüvvələri yaradılıb" deyə, ölkəsində həyəcan təbili çalıb. Axar.az xəbər verir ki, Sərkisyan Azərbaycanın müharibəyə hazırlaşdığını bəyan edib:** "Azərbaycanda müharibəyə hazırlıq gedir və rəsmi Bakı hər gün bu iddia ilə çıxış edir. Azərbaycan müharibənin nə olduğunu bilir və Ermənistanı qoruyan Rusiyadan müharibəyə qarışmayacağı ilə bağlı müsbət cavab almağa çalışır. Ermənistan bunu anlayır və bu məsələdə öz mövqeyini göstərməlidir. Bu, mexanizmdir və onun qarşısı alınmasa, səni əzərlər, necə ki, bu, bir neçə dəfə baş verib". V.Dərgahlı isə "Azərbaycanın Silahlı Qvvələri və ön xətdəki qüvvələrimiz hər zaman döyüşə hazırdır və çəkinmədən düşmənə sarsıdıcı zərbə vurmağa qadirdir" deyə bildirdi.

Yeri gəlmişkən, Ermənistanın müdafiə naziri Ohanyan Azərbaycanla həmsərhəd kəndlərin əhalisinə silah paylanılması təşəbbüsü ilə çıxış etsə də, prezident Sərkisyan buna qarşı çıxdı. Ermənistan prezidenti Serj Sərkisyanın iyulun 24-də vətəndaşlarla hakimiyyət arasında körpü rolu oynayan İctimai Şura üzvləri ilə görüşündə təhlükəsizlik məsələləri də müzakirə olunub. "Media forum" saytı xəbər verir ki, İctimai Şura üzvləri sərhəd zonasının möhkəmləndirilməsi və təhlükəsizliyin təmin olunması ilə bağlı təkliflər veriblər. Azərbaycan sərhədi boyunda yerləşən kəndlərin sakinlərinin silahlanması məsələsi əsas müzakirə predmeti olub və Sərkisyan bu təklifə qarşı çıxıb. Ermənistan prezidenti deyib ki, Silahlı Qüvvələr sərhəd rayonlarını nəzarətdə saxlayır və əlində silah tutmaq qabiliyyəti olan sakinləri üçün də hər cür şərait yaradılıb.

Azərbaycanda isə belə bir addıma ehtiyac görülmür.

**Hərbi ekspert Üzeyir Cəfərov deyir ki, Ermənistanda sərhəd kəndlərinə silah paylanması təşəbbüsünü öz prezidentinə müdafiə naziri Seyran Ohanyan versə də, Sarkisyanın buna qarşı çıxmasının ciddi səbəbləri var:** "Burda çoxlu səbəblər var, amma onlardan ən böyüyü, o silahın elə Ermənistan rəhbərliyinə qarşı işlədilməsi qorxusudur". **MN təmsilçisi V.Dərgahlı isə deyir ki, Azərbaycan ordusunda kifayət qədər qüvvə var deyə, mülki əhalinin yardımına zərurət yoxdur:** "Ermənistanda demoqrafik problem var, ölkə əsgər çatışmazlığı ilə üz-üzədir. Odur ki, əsas üstünlüyü müqaviləli xidmətə verirlər, onların da sayı azdır. Bu səbəbdən həm yerli əhalidən istifadə edirlər, həm də Ermənistandakı hərbi bazanın kontingentindən. Bu səbəbdən Ermənistan ordusunun heyəti və çağırışçıların sayı azdır. Hətta Ermənistan rəhbərliyi Rusiya və digər ölkələrdə yaşayan erməniləri, ikili vətəndaşlığı olan gəncləri də məhkəmə qərarı ilə məcburi qaydada orduda xidmət etmək üçün gətirirlər".

Təmas xəttindəki gərginliyin həmsədrlərin danışıqların növbəti raundunu keçirməklə bağlı hərəkətə keçdiyi ərəfədə müşahidə olunması da suallar doğurur. Xəbər verildiyi kimi, ATƏT-in Minsk Qrupunun həmsədrləri iyulun 22-də Brüsseldə Azərbaycanın və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarov




və Edvard Nalbəndyanla ayrı-ayrılıqda görüşüblər. Ancaq Ermənistan mətbuatının yazdığına görə, vasitəçilər faktiki olaraq Məmmədyarovla-Nalbəndyanın görüşünü təşkil edə bilməyib. Uzun müddətdir Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan prezidenti Serj Sərkisyanın Parisdə görüşməsi təklif olunur. Digər məlumata görə, Brüsseldə prezidentlərin Nyu-Yorkda, BMT Baş Assambleyasında görüşünün mümkünlüyü də müzakirə olunub. Bu səbəbdən qeyd edilir ki, əgər İlham Əliyevlə Serj Sərkisyanın Parisdə görüşməsi təşkil oluna bilməsə, ümid onların Nyu-Yorkda bir araya gəlməsinə qalır.

### Qırmızı Xaçla bağlı narazılıq artır

**Kəlbəcərdə girov götürülən Azərbaycan vətəndaşlarına qarşı saxta ittiham elan olunduğu, onlara işgəncələr verildiyi şəraitdə beynəlxalq qurumların susqunluğu etirazlara səbəb olub.** "Əgər bu gün dünyada əsirlərin hüquqlarını qorumaqla məşğul olduğunu deyən Beynəlxalq Qırmızı Xaç Komitəsi kəlbəcərli əsirlərin girov götürülməsinə laqeyd yanaşırsa, bu, onların ikili standartlarla fəaliyyət göstərdiyini ortaya qoyur". Bu sözləri editor.az-a **Milli Məclisin deputatı Vahid Əhmədov** söyləyib. Onun sözlərinə görə, əgər bu qurum yerində olsaydı, o zaman kəlbəcərli əsirlər dərhal azadlığa çıxardı: "Hesab edirəm ki, baş verən hadisədən sonra Azərbaycan öz doğma torpaqlarının işğalı ilə bağlı məsələni yenidən gündəmə gətirməli, dünya birliyini saxta siyasətdən imtinaya məcbur etməlidir".

**Hərbi ekspert Üzeyir Cəfərov isə "Yeni Müsavat"a dedi ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyi açıq yalan deyir və bizi aldatmaqla məşğuldur:** "Bu il iyunun son günlərində Ermənistan SQ tərəfindən girov götürülən iki soydaşımız Şahbaz Quliyev, Dilqəm Əsgərovla bağlı beynəlxalq qurumların nümayiş etdirdikləri hərəkətsizlik məni çox üzür. Hələ belə rəzalət olmamışdı. İki həftədən artıqdır ki, guya bunlar Kəlbəcər girovları, onların xilas yollarını axtarırlar kimi gülünc, heç bir məntiqə sığmayan münasibət göstərirlər. Hələ də onlarla görüşülməyib. Pezidentlərin görüşünə hazırlıq təklifləri də hesab edirəm ki, ortada olan real vəziyyətə heç bir müsbət təsir göstərməyəcək. Sadəcə vaxt itkisinə yol veririk. Qırmızı Xaçın hərəkətsizliyi isə bir qədər əvvəl qeyd etdim ki, heç bir məntiqə sığmır. Onlar açıq etiraf edirlər ki, ermənilərlə bacarmırlar. Öldürülən Həsən Həsənovun meyitinin düşməndən geri alınması məsələsi də daha çətin və mürəkkəb prosesdir". **Hüquqşünas-deputat Çingiz Qənizadə isə deyib ki, beynəlxalq konvensiyalara uyğun olaraq girov götürülən mülki şəxslərə qarşı bu cür işgəncələr verilməsi yolverilməzdir:** "Ermənilər isə bu qaydaları kobud surətdə pozurlar. Ona görə də BQXK sözdə deyil, əməli işə keçərək girovların azad olunaraq tez bir zamanda geri dönməsi üçün qurumun Xankəndi və İrəvandakı nümayəndələrini ciddi qaydada bu prosesə cəlb etməlidir. Bundan əlavə olaraq öldürülən şəxsin də nəşinin qısa zamanda alınmasına nail olmalıdırlar".

Millət vəkili onu da əlavə etdi ki, girov götürülənlərdən biri milliyətcə azərbaycanlı olsa da Rusiya vətəndaşı olduğundan Rusiya hökuməti erməni tərəfini vadar edərək onun azad olunması üçün ciddi tədbirlər görməlidir.

Kəlbəcər rayonu ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülən Dilqəm Əsgərovun həyat yoldaşı Firuzə Əsgərova, oğlu Kürdoğlu Əsgərov və Şahbaz Quliyevin həyat yoldaşı Albina Veselova Rusiya Prezidenti Vladimir Putinə və Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxinə müraciət ediblər. Bu barədə "Trend"ə Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib.

Komitəyə daxil olan məlumata görə, müraciətlərdə D.Əsgərovla Ş.Quliyevin girovluqdan azad olunması xahiş edilib. Rusiya Federasiyasının vətəndaşları olan D.Əsgərovun və A.Veselovanın pasportlarının surəti həmin müraciətlərə əlavə edilib. Pasportların surətindən məlum olur ki, D.Əsgərov və Ş.Quliyevin həyat yoldaşı A.Veselova Rusiya vətəndaşlarıdır. Lakin Rusiyanın Azərbaycandakı səfirliyi D.Əsgərovun Rusiya vətəndaşı olmadığını bildirmişdi.

Məsələyə rəsmi Bakının da mövqeyini aldıq.

XİN-in şöbə müdiri Hikmət Hacıyev dedi ki, girovlarla bağlı məsələ ölkə rəhbərliyinin şəxsən diqqətindədir və Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Şəxslərlə İş üzrə Dövlət Komissiyası tərəfindən lazımi tədbirlər görülür, ictimaiyyətə bu barədə mütəmadi məlumatlar verilir.

### 300 qatil erməni axtarışda

Azərbaycan erməni silahlı qüvvələrinin törətdiyi terror və digər cinayət əməlləri üzrə 300-ə yaxın şəxs barəsində axtarış elan edib. Hərbi Prokurorluğun mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, bunu hərbi prokuror Xanlar Vəliyev deyib. O qeyd edib ki, Xocalı, Qaradağlı, Meşəli, Bağanis-Ayrım faciələri, terror, habelə əsir düşmüş şəxslərə işgəncə verilməsi və erməni silahlı qüvvələrinin törətdikləri digər cinayət əməlləri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin soyqırıma görə məsuliyyəti nəzərdə tutan 103-cü və digər maddələri ilə istintaq olunaraq cinayət işi üzrə 296 təqsirləndirilən şəxs barəsində axtarış elan edilib. Hazırda cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Yəqin ki, Hərbi Prokurorluq dəlil-sübutları toplayandan sonra bu cinayətlərin üzərinə Kəlbəcərdə iki dinc sakini girov götürən, Cəbrayıl sakini Həsən Həsənovu isə qətlə yetirən erməni terrorçularının da adlarını əlavə edəcək...

YENİ MÜSAVAT
N 189 (5898) 26 iyul 2014

**Azərbaycan Prezidenti Administrasiyası (PA) rəhbərinin müavini Novruz Məmmədov Rusiya Liberal-Demokratik Partiyasının (RLDP) lideri, Dövlət Dumasının deputatı Vladimir Jirinovskiyə Azərbaycan və onun rəhbərliyi haqqında səsləndirdiyi fikirlərə görə təşəkkür edib. Bu barədə Novruz Məmmədov öz twitter səhifəsində yazıb ("Trend").**



# Jirinovskinin Azərbaycana qəfil jestinin sirri

## Rusiyanın baş siyasi jonqlyoru hakimiyyəti öydü, Bakıdan dərhal minnətdarlıq gəldi; azərbaycanlıları təhqirə görə işi məhkəmədə olan LDPR liderinə təşəkkür düşürmü?..

**Novruz Məmmədov qeyd edib:** "Azərbaycan, onun ümummilli lideri və prezident İlham Əliyev haqqında "Rossiya 24" telekanalında dediyi fikirlərinə görə Jirinovskiyə təşəkkür edirəm". PA yetkilisi həmçinin, vurğulayıb ki, "RBK" kanalında bəzi jurnalistlər "Rossiya 24"-də baxıb dərs almalıdırlar, onların buna çox ehtiyacı var" *(Xatırladaq ki, bu, günlərdə "RBK" kanalı separatçı Dağlıq Qarabağ rejiminin təbliğinə həsr olunmuş geniş veriliş hazırlayaraq efirə verib. Aparıcı, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə məhəl qoymayan Janna Nemtsovanın qonağı isə qondarma "DQR"-n "rəsmisi" olub. Verilişdə Azərbaycanın mövqeyinə müdafiə edən heç kəs dəvət edilməyib).*

Jirinovskiyə gəlincə, Azərbaycana münasibətdə bir qayda olaraq bəd niyyəti, təhqirləri və hədələri ilə seçilən bu şəxs gözlənilmədən Bakıya reverans edib. "Rossiya 24" telekanalının canlı yayımında o, Azərbaycanı MDB ölkələri arasında müsbət nümunə kimi göstərərək deyib: **"Real müsbət nümunə var. Elə Azərbaycanı götürək. Bütün kəndlər abadlaşdırılıb, yeni komplekslər, həmçinin idman kompleksləri tikilir. Bütün ölkə inkişaf edib".**

LDPR sədri daha sonra ölkənin "bu cür sürətli inkişafının səbəbini Azərbaycan xalqının düzgün seçimi ilə - İlham Əliyevi prezident seçməklə" izah edib. O, həmçinin Heydər Əliyevi yüksək qiymətləndirib və onu "dahi azərbaycanlı adlandırıb". Jurnalistin sualını cavablandıran Jirinovski həmçinin Azərbaycanın perspektivdə Gömrük İttifaqına daxil olma ehtimalını istisna etməyib. Qeyd edib ki, Azərbaycan və Rusiya rəhbərləri və hökumət üzvləri arasında ələ münasibətlər var. Onun fikrincə, Rusiya müsəlman ölkəsi olan Azərbaycana böyük diqqət ayırmalıdır, "belə ki, bu, yekunda Türkiyə və İranla əlaqələrin yaxşılaşmasına gətirib çıxaracaq".

LDPR sədri bir çox digər postsovet ölkələrindən fərqli olaraq, Azərbaycanda rus dilinə hörmətlə yanaşıldığını da vurğulayıb. Sitat: **"Ölkədə 400 rus məktəbi, rus teatrı, universiteti fəaliyyət göstərir. Həmişə pis şeylər haqqında danışmaq lazım deyil, çünki Azərbaycan var!"** Daha sonra o, rusiyalı turistləri Azərbaycan kurortlarına səfər etməyə çağırıb: **"Azərbaycan antirus partiyanın olmadığı yeganə ölkədir. Bu, sözün əsl mənasında dost ölkə deməkdir".**

Jirinovskinin Azərbaycan haqda bu sözləri, özəlliklə də bizi "dost ölkə" adlandırması açıq səmada şimşək effektinə oxşayır və suallar doğurur. Olmaya islah olub?! Bir daha yada salaq ki, indiyədək o, azərbaycanlıların ünvanına dəfələrlə təhqiramiz ifadələr səsləndirib və buna görə də ölkəmizdə daim "arzuedilməz şəxs" sayılıb.

Növbəti belə təhqirlərdən birinə görə onun adı hazırda Moskva Tver Məhkəməsində cavabdeh şəxs qismində keçir. Bəllidir ki, iddianı Moskvada yaşayan ər-arvad vəkil Sadiq və Elmira Məmmədovlar qaldırıb. Onlar Jirinovskinin təkzib verməsini, mənəvi zərərə görə hər birinə 50 milyon rubl kompensasiya ödəməsini tələb edirlər.

Söz düşmüşkən, iddia ilə bağlı hazırlıq işinə iyulun 31-də baxılacaq. İş üzrə cavabdeh qismində Rusiya Dövlət Dumasının da cəlb edilib. Çünki deputat təhqiredici nitqlə parlamentin aşağı palatasının iclasında çıxış edib. O vaxt LDPR sədri çıxışında azərbaycanlı adında millətin olmadığını söyləmişdi: **"Nədir Azərbaycan? Sizə ruscasını deyərəm. "Azər" - "Xəzər dənizi", "baca", diyar deməkdir. Yəni Xəzər sahilində yaşayan insanlar. Bu, millətdir? Bu, orada yaşayan insanlardır".**

İstisna deyil ki, Jirinovski məhkəmənin hansı qərarı çıxaracağını bildiyi üçün ona təsir eləməkdən ötrü bu addımı atıb, azərbaycanlıların könlünü bəri başdan almağa çalışıb. Onun Kremlin açıq deyə bilmədiklərini dilə gətirən bir siyasi jonqlyor olduğunu da nəzərə alsaq, belə ehtimal eləmək olar ki, Azərbaycana jestin ikinci səbəbi Moskvanın ölkəmizi Gömrük və Avrasiya ittifaqlarına tovlamaq üçün şirnikləndirici ritorikanı davam etdirdiyi ilə bağlıdır. Yəni tələdə pendir məsələsi.

❑ **Siyasət şöbəsi**

# Bu il Azərbaycandan 22 xarici şirkət qovulub

## Hökumət 100 faizli xarici kapitallı müəssisələri sıxışdırır və onların yerini birgə müəssisələr tutur; yerli şirkətlər daha çox Türkiyə şirkətləri ilə birgə müəssisələr yaradır



**1995-2013-cü illərdə Azərbaycan iqtisadiyyatına 83,8 milyard dollarlıq xarici investisiya yatırılıb. Xarici investisiyaların 58,2 faizi neft sektorunun payına düşür. Bu müddətdə Azərbaycana ən çox investisiyanı Böyük Britaniya şirkətləri yatırıb - 18 milyard dollar. Sonrakı yerləri Amerika Birləşmiş Ştatları (7 milyard dollar) və Yaponiya (4 milyard dollar) tutur.**

1995-2013-cü illərdə Azərbaycanın qeyri-neft sektoruna ən çox investisiyanı Türkiyə şirkətləri yatırıb. Qeyri-neft sektoruna yatırılan investisiyaların 26 faizi Türkiyənin, 16 faizi Böyük Britaniyanın, 12 faizi isə ABŞ şirkətlərinin payına düşür.

Hazırda Azərbaycanda xarici kapitallı 6 min 857 şirkət fəaliyyət göstərir. Bunun 36 faizi Türkiyə, 8,3 faizi Rusiya, 7,8 faizi Böyük Britaniya kapitaldır. Xarici şirkətlər podratçı qismində layihələrə daha çox cəlb edilir. Türkiyə şirkətləri Azərbaycanda 153 layihə üzrə 10,4 milyard dollarlıq, Çexiya şirkətləri 6 layihə üzrə 2 milyard dollarlıq, Fransa şirkətləri 22 layihə üzrə 1,8 milyard dollarlıq iş görüblər.

Bu dövrdə Azərbaycan şirkətləri öz növbəsində Türkiyə, Gürcüstan, Rusiya, Çernoqoriya, Serbiya və sair ölkələrə investisiya yatırıblar.

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatı 1995-2013-cü illərdə daha çox Avropa iqtisadiyyatı ilə bağlı olub. Bu gün Azərbaycanın investisiya bazarında Rusiyanın payı cəmi 8 faizdir ki, bu da ən yaxın qonşu sayılan böyük dövlət üçün çox pis göstəricidir.

Belə çıxır ki, Rusiya Azərbaycan iqtisadiyyatına iqtisadi alətlərlə təsir gücünü itirib. Bununla da Rusiyanın təklif etdiyi Avrasiya İttifaqı, eləcə də Gömrük İttifaqı layihəsinin Azərbaycan üçün elə bir əhəmiyyət kəsb etmədiyi üzə çıxır. Bu müddətdə Azərbaycan iqtisadiyyatı Avropa iqtisadiyyatına xeyli dərəcədə inteqrasiya edə bilib.

Bununla belə, Azərbaycanda Avropa kapitalının tam təhlükəsizliyi hələ tam təmin edilməyib. Bu ilin birinci yarısında Azərbaycanda 100 faiz xarici kapitallı 22 şirkət və 2 birgə şirkət ləğv edilib. Doğrudur, bunun əvəzinə yeniləri yaradılıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, ilin əvvəlindən Azərbaycanda 222 müəssisə hüquqi şəxslərin dövlət reyestrindən çıxarılıb. Bunun 39-u dövlət müəssisəsidir. Altı ayda 4097 özəl şirkət yaradılıb. Bunun 350-si xarici kapitallıdır.

Ancaq etiraf edək ki, ölkəni daha sanballı şirkətlər tərk edib. Hökumət ölkənin metallurgiya sənayesinə 300 milyon dollar sərmayə yatıran Hollandiyanın "Fondel" şirkəti ilə yollarını ayırdı. Ardınca isə paytaxtın enerji təchizatı ilə məşğul olan "Barmek" şirkəti ilə "vidalaşdı". Hər iki şirkətlə uzun müddətə bağlanmış müqavilə Azərbaycan tərəfinin təşəbbüsü ilə pozuldu. Bunun ardınca, "Azpetrol" Neft Şirkətinin hollandiyalı təsisçilərinin payları da məhkəmə qaydasında əlindən alındı.

Hazırda Azərbaycanda 100 faiz xarici kapitallı 5194 şirkət və yerli kapitalın da iştirak etdiyi 1 676 şirkətin filial və nümayəndəliyi var.

"Turan"ın məlumatına görə, xarici kapitallı şirkətlərin üçdə biri Türkiyənin payına düşür. Ardınca Böyük Britaniya (9,6 faiz), Rusiya (7,1 faiz), İran (5,6 faiz), ABŞ (3,9 faiz), Almaniya (2,3 faiz) gəlir. Xarici kapitallı şirkətlər əsasən tikintidə (1048), emal sənayesində (590) və ticarətdə (1893) çalışır.

Son illərin tendensiyası göstərir ki, hökumət 100 faizli xarici kapitallı müəssisələri sıxışdırır və onların yerini birgə müəssisələr tutur. Ancaq bütün hallarda fakt budur ki, böyük neft gəlirlərinə baxmayaraq Azərbaycan hələ də xarici sərmayələrə ehtiyac duyur. Çünki daxili resurslar nə qədər çox olsa belə, investisiya ehtiyacının ən yaxşı halda 30-35 faizini ödəyir. Bu baxımdan hökumət xarici investisiyaları qorumaq zorundadır.

❑ **İqtisadiyyat şöbəsi**

**Avropada yaşayan azərbaycanlıların yaratdıqları bir sıra təşkilatlar Kəlbəcərdə əsir götürülənlərin azad olunması üçün beynəlxalq qurumların lazımi addımlar atmamasına etiraz bəyanatı qəbul ediblər.**

Etiraz bəyanatı Birləşmiş Millətlər Təşkilatına, Avropa Parlamentinə, Avropa Şurasına, Beynəlxalq Qızıl Xaç Komitəsinə, “Amnesty International” təşkilatına, ATƏT-in Minsk Qrupuna və digər demokratik Avropa dövlətlərinə göndəriləcək. Kəlbəcər rayonunun sabiq icra başçısı, hazırda Almaniyada yaşayan İlham Həsən həmin sənədi özünün facebook səhifəsində yerləşdirib və qeyd edib ki, bu bəyanata qoşulmaq istəyən şəxslər və təşkilatlar adlarını oraya daxil edə bilərlər.

**Bəyanatda bildirilir:** “BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822,853,874,884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınması və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad olunması tələblərinə baxmayaraq Ermənistan hökuməti bu gün də bu işğalçılıq siyasətini davam etdirir.

İşğalçı Ermənistan hökuməti isə BMT tərəfindən rəsmi tanınan Azərbaycan Respublikasının ərazisi olan Kəlbəcər rayonunda işğalçılıq fəaliyyətini davam etdirir. Ermənistan tərəfindən yaradılan terrorist qruplar 3 nəfər Azərbaycan vətəndaşını öz doğma torpaqları olan Kəlbəcər ərazisində girov götürərək işgəncələrə məruz qoyub. Heç bir beynəlxalq normativlərə əməl etməyən erməni birlikləri dünyanın gözü qarşısında işğalçılıq və terror əməliyyatlarına davam edir və günahsız insanların qanını axıdır!

Azərbaycan vətəndaşları Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənov öz doğulub böyüdükləri kəndlərinə gedərək yaxınlarının məzarını ziyarət edərkən Rusiya və Ermənistan hökumətləri tərəfindən himayə edilən silahlı terrorçular tərəfindən girov götürülmüş və hazırda işgəncələrə məruz qalıblar. Beynəlxalq birlikləri heçə sayaraq qanunsuz girov götürdükləri sivil insanları ermənilər beynəlxalq təşkilatlarla da görüşdürmürlər!

Beynəlxalq təşkilatlar, dünya birliyi tərəfindən heç bir təzyiqə məruz qalmayan Ermənistan hökuməti bir az daha irəli gedərək, dinc vətəndaşlara qarşı qanunsuz cinayət işi açdığını bəyan edir.

Bütün bunlar onu göstərir ki, ciddi qınağa tuş gəlməyən Ermənistan Respublikası potensial bir terror yuvasına dönüb və Qafqazlara, Avropaya təhdid yaradır.

Ona görə Avropada yaşayan azərbaycanlılar və onların təmsil olunduğu təşkilatlar olaraq, Avropa dəyərlərinə sadiq, insan haqlarına dəyər verən sivil dünya ölkələrinə, beynəlxalq təşkilatlara müraciət edərək Ermənistan rəhbərliyini bu təhlükəli terror əməlindən çəkindirmək, girov götürülmüş sivil insanları dərhal azad etmək üçün ciddi addımlar atmasını xahiş və tələb edirik".



# İsgəndər Həmidov girovların azad edilməsinin yolunu dedi

## “Ermənilərdən də qulaqlayıb gətirmək, bizim girovlarla dəyişmək olar”




Bəyanatı Demokratik Azərbaycan Hərəkatı, Müsavat Avropa Təşkilatı, Almaniya, Hollandiya, İsveç, İsveçrə, Belçika, Norveç, Fransa, Litva və digər demokratik Avropa ölkələrindəki azərbaycanlıların təşkilatları, azərbaycanlılar imzalayıblar.

**Azərbaycanlı girovların azad edilməsinin ləngiməsi Azərbaycanın daxilində də narazılıqlara, etirazlara yol açıb. Sabiq daxili işlər naziri İsgəndər Həmidov Kəlbəcərdə ermənilərin girov götürdükləri Dilqəm Əsgərovun, Şahbaz Quliyevin girovluqdan azad edilməsi, öldürüldüyü bildirilən Həsən Həsənovun meyitinin geri alınması üçün hakimiyyətin təxirəsalınmaz addımlar atmalı olduğunu bəyan edib. İ.Həmidov moderator.az-a açıqlamasında bildirib ki, yoxsa sonra çox gec olacaq:** “Mən hesab edirəm ki, kimin nə deməsindən, hansı təhlükəni qabartmasından asılı olmayaraq, Azərbaycan məhz bu insidentdən sonra Qarabağda antiterror əməliyyatına başlamalıydı. Antiterror əməliyyatına başlamağa cəsarət etmirlərsə, heç olmasa xüsusi xidmət orqanlarını və şir ürəkli oğullarımızı hərəkətə gətirməklə ermənilərdən də qulaqlayıb gətirmək, bizim girovlarla dəyişmək olar. Əgər doğrudan da hakimiyyətdə oturanlar Dilqəmgilin öz vətənində bu cür işgəncə altında saxlanılmasından səmimi olaraq narahatçılıq keçirirlərsə, əllərində saymaqla qurtarmayan imkanlar var ki, Dilqəmgili ən qısa zamanda geri ala bilsinlər. Mən burda açıq şəkildə demirəm, özləri neynəmək lazım olduğunu yaxşı bilirlər. Yoxsa ola bilər ki, onları nə vaxtsa geri qaytarsınlar, amma elə vəziyyətdə buraxacaqlar ki, deməyə dilim də gəlmir, yəni çox gec olacaq. Mənim adımdan bütün kəlbəcərlilərə müraciət etməyinizi xahiş edirəm ki, hakimiyyətin yalançı vədlərinə inanmasınlar və kəlbəcərlilər öz ellilərinə sahib çıxsınlar. Məndə olan məlumata görə, hakimiyyət Dilqəmgilin ailəsinə müəyyən köməklik də təklif edib və onları arxayın salmaq istəyiblər. Mənim deməyim odur ki, hakimiyyətin verdiyi dilənçi payını qəbul etməsinlər”.

**Kəlbəcərdə əsir götürülən vətəndaşlarımızın hüquqlarını müdafiə komitəsinin sədri Elxan Salahov “Yeni Müsavat”a açıqlamasında İsgəndər Həmidovun çox vacib bir çağırış etdiyini deyib:** “Mən hesab edirəm ki, bu çağırışı təkcə kəlbəcərlilər yox, bütün Azərbaycan xalqı nəzərə, diqqətə almalıdır. Biz bilməliyik ki, xalq olaraq dünya qarşısında kəskin mövqeyimizi qoymasaq, əsir vətəndaşlarımız azad olunmayacağı halda bütün addımlara getməyə hazır olduğumuzu dünyaya isbatlamasaq, qardaşlarımızı düşmənin əlindən geri ala bilməyəcəyik. İsgəndər bəyin müraciətindən də belə nəticə çıxır ki, girov vətəndaşlarımızın azad olunması məsələsini tamamilə hakimiyyətin üzərinə qoyub arxayın oturmaq doğru deyil. Bu məsələ ilə bağlı Azərbaycan ictimaiyyəti aktivlik nümayiş etdirməli, beynəlxalq təşkilatların qarşısında aksiyalar keçirməli, hətta Qarabağda partizan hərəkatına başlamaq istiqamətində addımlara hazır olduğunu ortaya qoymalıdır. Belə olanda hakimiyyət də müvafiq beynəlxalq təşkilatlar, dünya gücləri qarşısında məsələ qaldıracaq ki, Azərbaycan xalqı ayağa qalxıb əsirlərin təcili azad edilməsi məsələsini qoyur, məsələ həllini tapmalıdır. Kəlbəcərdə əsir düşən və öldürülən vətəndaşımızın geri alınması məsələsi təkcə kəlbəcərlilərin deyil, bütün Azərbaycan xalqının işi olmalıdır. Ermənilər onları kəlbəcərli olduqları üçün yox, Azərbaycan vətəndaşı, azərbaycanlı olduqları üçün əsir götürüblər. Bu, bütün Azərbaycan xalqına meydan oxumaqdır. Ona görə də xalq olaraq düşmənin qarşısına çıxmalıyıq. Bu, hər bir vətəndaşın vətən qarşısında borcudur”.

**E.Salahov onu da dedi ki, təəssüf ki, Azərbaycanda əsirlər məsələsinin geniş miqyasda ictimailəşməsini istəməyən qüvvələr var. İyulun 17-də Müdafiə Komitəsinin təşkilatçılığı ilə Beynəlxalq Mətbuat Mərkəzində keçirilən tədbirin gedişində işıqların, mikrofonların söndürülməsi də bununla bağlı idi:** “Sözsüz ki, dövlət girovların azad olunması üçün iş aparır. Ola bilsin ki, aparılan işlərin heç də hamısı barədə ictimaiyyətə informasiya verilməməsi lazımdır. Bu, başadüşüləndir. Ancaq ictimaiyyətin girovların azad olunması tələbi ilə keçirdiyi tədbirlərə şərait yaradılmalıdır. Çünki bu da ümumi işə dəstəkdir”.

❑ **Etibar SEYİDAĞA**

# Pislik üçün Rusiya nümunəsi

**Mahal İSMAYILOĞLU**
mahal57@mail.ru



**Dünyanın mənzərəsi, ən azından bizim ölkədəki durum fərqli olacaqdı - əgər Rusiya sivil dünya ilə bir sırada dayanmaq istəsəydi, demokratik dəyərləri bölüşsə idi... Əslində Sovet imperiyasının süqutundan sonra bu ölkənin üzünü demokratik dünyaya tərəf çevirəcəyinə ümidlər çox idi. Rusiyanın ilk prezidenti Boris Yeltsinin hakimiyyətdə olduğu illərdə bu yöndə addımlar da atılırdı...**

Keçmiş imperiyadan qopub öz müstəqilliyini elan edən ölkələrdə də belə nümunə izsiz ötüşmürdü - bütün hallarda avtoritar dövlət başçıları ehtiyatlı addımlar atırdılar, demokratiya imitasiyası əsas qayğılardan biri idi. Biz indi ötən əsrin 90-cı illərini yana-yana xatırlayırıq: onda repressiyalar belə amansız həddə qərarlaşmamışdı, cəmiyyətdə də bu qədər məhdudiyyətlər yox idi. Dövlət başçıları etiraf etməsələr də, atdıqları addımları Rusiyaya uyğunlaşdırmaq istəyirdilər...

Niyə bu hakimiyyət demokratiya yox, ən amansız idarəçilik yolunu tutdu? Min cavab arasaq da, bircə səbəb var - bütün bunlar Rusiyadakı hadisələrlə üst-üstə düşdü. Putin prezident seçilən kimi ilk qayğısı ölkədəki müstəqil mətbuatı boğmaq, aradan götürmək oldu. Buna qarşı müqavimət də davamlı olmadı... Az sonra oxşar ssenari üzrə hadisələr Azərbaycanda cərəyan etdi. Qısa bir zaman ərzində gördük ki, müstəqil, azad mətbuatın sırası seyrəldi. Bir çox qəzetlər “könüllü” olaraq hakimiyyətlə həmrəy oldular...

Elə hüdudsuz prezidentlik də bu ölkə nümunəsində mümkün oldu. Bircə anlığa göz önünə gətirin: Rusiyada Putin nümunəsi olmasa idi, əbədi prezidentlik də belə arxayın şəkildə mümkün olmazdı. Sanki bütün proseslər sinxron bir oxşarlıqla təkrarlandı. Bütün postsovet ölkələri yekrəng oldular... İkinci prezidentliyi formal seçki keçirilib təsdiqlənəndən sonra Putinin keçmiş SSRİ nümunəsində yeni birlik yaradacağını elan etməsi də təsadüfi deyildi. Bütün hallarda 20 ildən çox vaxt ötsə də, bu ölkələrin idarə olunmasında oxşarlıq qalırdı. Psixoloji əhval da üst-üstə düşürdü. Putini yeni imperiya yaratmağa həvəsləndirən də bu oxşarlıq idi.

Bircə-bircə Azərbaycanda keçirilən prezident, parlament seçkilərini göz önünə gətirin: seçki məntəqələrində müddət başa çatan kimi ilk bəyanat verən, onu azad, ədalətli, demokratik adlandıran Rusiyadan gələn müşahidəçilər olub... Təsəvvür edirsinizmi ki, demokratik dəyərlərin ən açıq şəkildə tapdandığı bir ölkə bizim saxta seçkilərə hamını qabaqlayıb, demokratiya donu geydirib...

Şimaldan gələn təhdidlərə, Avrasiya Birliyinə qoşulmaq tələblərinə sükutla yanaşan Azərbaycanın indiki davranışları da anlaşılandır. Bu, heç də balanslaşdırılan xarici siyasət deyil, Rusiyanın indiyəcən bu hakimiyyəti dəstəkləməsinin qarşılığında qəti şəkildə ona “yox” deyə bilməməsinin nəticədir... Azərbaycan məmurları öz sərvətlərini “böyük qardaşla” bölüşmək istəmirdilər. Bu qədər sərvətə sahib durandan sonra Rusiyasayağı yaşamaq da onların könlünə yatmırdı...

Ukraynada hadisələrin belə axara yönəlməsi planları alt-üst etdi. Ən azından son 4-5 ayda Avrasiya Birliyinə qoşulmaqla bağlı şimaldan gələn tələblər səngiyib. Dərhal bunu, Rusiyadan gələn tələblərin səngiməsini də, uğurlu xarici siyasət sayanlar var. Amma Ukraynanın bütün qalan ölkələr üçün sipər olduğu da göz önündədir.

Kim bilir, Ukrayna belə açıq və sərt mübarizə yolu tutmasa idi, hadisələr hansı məcraya yönələcəkdi? Amma bütün bunları zamanın verdiyi fürsət sayıb sevinmək də tezdir - Qərbin sərt, amansız müqaviməti ilə üz-üzə qalan bir ölkənin hansı addımlar atacağını proqnozlaşdırmaq da çətindir. Özbəkistanı, Türkmənistanı, Azərbaycanı da birbaşa öz təsir dairəsinə salmaq istəsə ABŞ və Avropa dövlətləri onları da Ukrayna kimi dəstəkləyəcəkmi? Bu ölkələr öz müstəqilliyini qorumaq üçün müqavimət göstərəcəkmi? Nəhayət demokratik dünya bu dəfə Avtoritar rejimlərin himayəçisi olmaq missiyasını öz üzərinə götürəcəkmi?

Hələlik Rusiya Ukrayna labirintindən çıxa bilmir. “Boinq-777" təyyarəsinin vurulması isə Rusiyanın Avrasiya Birliyi ilə bağlı planlarını alt-üst edib. Əslində yeni birlik yarandığı üç ay müddətində heç bir cəhətdən nümunə ola bilməyib. Əksinə, ona qoşulmamaq səbəbləri daha da qabarıq şəkildə ortaya qoyulub. Bu axarda indidən demək olar ki, istər Gömrük İttifaqı, istərsə də Avrasiya Birliyi yaratmaq istəyi puç olacaq. Altı aydan sonra Rusiya prezidentinin müəyyən etdiyi zaman limiti tükənir.

Rusiyanın məğlub olması həm də avtoritarizmin yenilməsi deməkdir.

YENİ MÜSAVAT
N 189 (5898) 26 iyul 2014


Xalid Mədətov

# Prezidentin işdən çıxardığı məmur oğlunun məhkəməsi başlayır

**İyulun 25-də Bakı Ağır Cinayətlər Məhkəməsində xalq artisti Ağasəlim Abdullayevin ailə faciəsinə səbəb olan məmur oğlunun cinayət işi üzrə hazırlıq iclası keçirilib. APA-nın məlumatına görə, prosesdə təqsirləndirilən Xalid Mədətovun anket məlumatları dəqiqləşdirilib. Prosesin baxış iclası avqustun 1-nə təyin edilib.**

Qeyd edək ki, martın 15-də saat 00:30 radələrində Suraxanı rayonu, Zığ şossesində Abdullayev Vüqar Ağasəlim oğlunun idarə etdiyi VAZ-2106 markalı 10-NB-466 dövlət qeydiyyat nişanlı avtomobillə Mədətov Xalid Mübariz oğlunun idarə etdiyi “Mercedes-Benz G-55" markalı 90-FE-007 dövlət qeydiyyat nişanlı avtomobil toqquşub. Nəticədə "VAZ-2106"da olan sərnişinlər - 1959-cu il təvəllüdlü Brilyant Abdullayeva və 2008-ci il təvəllüdlü Ağasəlim Abdullayev hadisə yerində ölüb, 1950-ci il təvəllüdlü Ağasəlim Abdullayev və 1984-cü il təvəllüdlü Səadət Abdullayeva isə müxtəlif dərəcəli bədən xəsarətləri ilə 3 saylı şəhər klinik xəstəxanasına yerləşdiriliblər.

Fakta görə Suraxanı Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 263.3-cü (Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin edilmiş və digər zəruri istintaq hərəkətləri yerinə yetirilib.

Sürücü X.Mədətov narkoloji tibbi müayinədən keçirilərkən orta dərəcəli alkoqol sərxoşluğu vəziyyətində olması müəyyən edildiyindən cinayət işi Cinayət Məcəlləsinin 263-1.4-cü (Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsinə tövsif olunub.

Onu da qeyd edək ki, X.Mədətov Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sabiq sədr müavini Mübariz Mədətovun oğludur.

Həmin hadisədən 2 gün sonra isə prezidentin sərəncamı ilə Mübariz Mədətov tutduğu vəzifədən azad edilib, oğlu isə həbs olunub.


Tofiq Heydərov

# AZAL prezidentinə yaxın biznesmen həbs olundu

## “AAAF Park” yaşayış kompleksinin baş direktoru saxlanıldı; Tofiq Heydərovu Beynəlxalq Bankın rəhbəri ilə nə birləşdirir?

**Hakimiyyət dairələri iri maliyyənin dövr etdiyi tikinti şirkətlərində yoxlamalara qərar verib. Azərbaycan üçün qeyri-ənənəvi dini cərəyanlara yaxınlığı ilə seçilən, xüsusən radikal vəhhabiliyə meyl edən dini qruplaşmaların maliyyə qaynaqlarının nəzarət altına alınması prosesi başlayıb.**

Aldığımız son məlumata görə, “Sevil” MMC ilə paralel “AAAF Park” yaşayış kompleksində də yoxlamalar olub. Vergilər Nazirliyi və Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşları kompleksdə yoxlamalara başlayıb. Yoxlamaların ilkin nəticəsi olaraq “AAAF İnşaat” MMC-nin baş direktoru Tofiq Heydərov saxlanılıb.

AZAL prezidenti Cahangir Əsgərovun yaxın çevrəsinə daxil olan T.Heydərovun vergi cinayətinə görə tutulduğu bildirilir. “Yeni Müsavat”a daxil olan məlumata görə, yoxlama Korrupsiyaya Qarşı Mübarizə Komissiyasından verilən gizli göstərişlə həyata keçirilir.

Hər iki kompleksdə külli miqdarda vergidən yayınma halları qeydə alınıb. Qeyd edək ki, artıq Baş Prokurorluq “Sevil” MMC-də baş verən qanunsuzluqlar və həbslər haqda rəsmi məlumat yayıb.

Məsələ ilə bağlı “AAAF İnşaat” MMC ilə əlaqə saxladıq. Özünü təqdim etməyən MMC-nin xanım əməkdaşı əvvəlcə T.Heydərovun ölkə xaricində olduğunu söylədi. Sonradan isə T.Heydərovun iclasda olduğunu deyib telefonu qapatdı.

“AAAF İnşaat”ın həm AZAL prezidenti Cahangir Əsgərova, həm də Beynəlxalq Bankın prezidenti Cahangir Hacıyevə bağlılığı haqda məlumatlar var. MMC adındakı AAAF abbreviaturasının Cahangir Əsgərovun prezidenti olduğu Azərbaycan Ağır Atletika Federasiyasına (AAAF) işarə olduğu deyilir.


Cahangir Əsgərov


Cahangir Hacıyev

Bu məlumatın ortaya çıxması təsadüfi deyil. Həbs xəbəri yayılmış Tofiq Heydərov vaxtilə Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti olub. Yəni birbaşa C.Əsgərovun müavini vəzifəsini daşıyıb. “AAAF Park” yaşayış kompleksində ailə sağlamlıq mərkəzi, uşaq bağçası, hotel, restoranlar, müxtəlif təyinatlı mağazalar, hər biri 6 sot ərazidə inşa edilmiş 2 mərtəbəli çoxsaylı villalar, 4 mərtəbəli yaşayış evləri, uşaqların üçün əyləncə parkı var. Burada məktəblə yanaşı, ağır atletika ilə məşğul olan “Zirvə” idman klubunun üçmərtəbəli böyük binası da inşa edilib. “Zirvə”nin C.Əsgərovun prezidenti olduğu federasiya ilə əlaqələri də mövcuddur.

Cahangir Hacıyevə isə ərazinin aidiyyəti kompleksin üzərində tikildiyi torpağın Azərbaycan Beynəlxalq Bankının (ABB) girovluğunda olmasından keçir. Vaxtilə “Bakı Quşçuluq” ASC-nin yerləşdiyi bu ərazi sonradan şübhəli yollarla özəlləşdirilib. ASC səhmdarlarının məhkəmələrə üz tutması da, hüquqlarının bərpa olunması ilə sonuclanmayıb. C.Hacıyevə “AAAF inşaat” MMC-nin digər bağlılıqları da var. C.Hacıyev bu şirkətə daha aşağı faizlə uzunmüddətli kreditlər verib.

“Yeni Müsavat” əməkdaşı Baş Prokurorluğun mətbuat xidmətinə müraciət edərək “AAAF İnşaat” MMC-də yoxlamaların aparılıb-aparılmamasını dəqiqləşdirməyə çalışıb. Lakin xidmətdən sorğumuza hər hansı bir şərh verilməyib.

**Mövzuya qayıdacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Məsələ ilə bağlı aidiyyəti şəxsləri dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# “Sevil” MTK-nın rəhbərinin həbsi rəsmən təsdiqləndi

## MTK rəhbəri Arzu Zeynalovla yanaşı, şirkətin direktoru və Hökməli bələdiyyəsinin sədri də istintaqa cəlb olunub



**Baş Prokurorluq “Sevil Massivi” Mənzil Tikinti Kooperativinin (MTK) vəzifəli şəxslərinin həbsini təsdiqləyən məlumat yayıb. Həmin məlumatda deyilir ki, “Sevil Massivi” MTK-da külli miqdarda vergilərin dövlət büdcəsinə ödənilməsindən yayındırılması faktına əsasən Vergilər Nazirliyində başlanmış cinayət işi üzrə istintaq aidiyyəti üzrə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində davam etdirilir.**

Aparılmış istintaq zamanı kooperativin təsisçisi Aynur Zeynalovun həmin kooperativin direktoru Elçin İsmayılov və digərləri ilə qabaqcadan əlbir olub 2013-2014-cü illərdə 172 min 507 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayınmalarında, habelə xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq alınmadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq 99 min 597 manat məbləğində gəlir əldə etmələrində şübhələr üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən onlara Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddələri ilə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Qeyd edilənlərlə yanaşı, Abşeron rayon Hökməli bələdiyyəsinin sədri Mirnamat Miradiyevin bələdiyyə ərazisində yerləşən torpaq sahələrini A.Zeynalov və E.İsmayılovun bilavasitə şərait yaratmaları ilə müxtəlif şəxslərə sataraq ümumilikdə sonunculardan 170 min manat məbləğində rüşvət almasında şübhələr üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən ona Cinayət Məcəlləsinin 311.3.3-cü (rüşvət alma) maddəsi ilə ittiham elan edilməklə ağır xəstəliyi ilə əlaqədar barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib. İstintaqla həmçinin müəyyən olunub ki, “Sevil Massivi” MTK-nın məsul şəxsləri Abşeron rayon Hökməli bələdiyyəsinin sədri M.Miradiyevlə əldə etdikləri şifahi razılaşmaya əsasən bələdiyyənin mülkiyyətində olan 30 hektar perspektiv inkişaf torpaqlarını, eləcə də ayrı-ayrı şəxslərin mülkiyyətində olan “At yalı” və “Sonalı sahəsi” adlandırılan 110 hektar örüş torpaqlarını qanunsuz olaraq zəbt edərək həmin torpaqların vətəndaşlara faizsiz kreditlə satışını həyata keçiriblər. Vətəndaşlar tərəfindən isə həmin torpaq sahələrində layihə-smeta sənədləri olmadan, dövlət qeydiyyatına alınmadan 200 fərdi yaşayış evinin tikintisi həyata keçirilmişdir. Kredit ödənişləri başa çatdıqdan sonra bələdiyyəyə məxsus olmayan sahələr bələdiyyə tərəfindən hərraca çıxarılmaqla satılaraq vətəndaşların adlarına rəsmiləşdirilib.

Bundan başqa, “Sevil Massivi” MTK tərəfindən qeyd olunan ərazinin təyinatına uyğun olmadan orada 100-dən artıq çoxmənzilli yaşayış binalarının tikintisi nəzərdə tutulmuş, həmçinin müvafiq dövlət qurumları ilə razılaşdırılmadan, o cümlədən qanunsuz olaraq aparılan tikinti işlərinin dayandırılması barədə Fövqəladə Hallar Nazirliyinin rəsmi xəbərdarlıqlarına məhəl qoymayaraq binaların 14-nün özülü qazılmaqla, onlardan 4-də ilkin tikinti işləri həyata keçirilmişdir. Bununla belə, təyinatına görə örüş torpaqları olan həmin sahələrdə qanunsuz tikiləcək çoxmənzilli yaşayış binalarından vətəndaşlara mənzillər satılıb. Hazırda “Sevil Massivi” MTK-da tikinti və satış işləri dayandırılıb, törədilmiş cinayət nəticəsində fiziki və hüquqi şəxslərə vurulmuş ziyanın müəyyən edilərək onların hüquqlarının bərpa olunması, eyni zamanda cinayətin digər iştirakçılarının müəyyənləşdirilməklə istintaqa cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən davam etdirilir.

Xatırladaq ki, adıçəkilən MTK-nın işlərinin düyünə düşdüyü, alıcıların aldadıldığı və kooperativ rəhbərinin həbs edilməsi barədə ilk olaraq “Yeni Müsavat” qəzeti yazmışdı. Ancaq məlumat MTK-nın məsul işçiləri tərəfindən israrla təkzib olunurdu...

❑ **E.MƏMMƏDƏLİYEV**

**Hazırda həbsdə olan Hərbi Dəniz Qüvvələrinin (HDQ) vitse-admiralı Şahin Sultanovun vaxtilə həbs etdirdiyi hüquq müdafiəçisi Bəxtiyar Məmmədov redaksiyamıza məktub yollayıb. B.Məmmədov Ş.Sultanov və vəkilinin qəzetimizdə dərc olunan fikirlərinə etiraz edir:**




# Hüquq müdafiəçisindən vitse-admirala yeni ittihamlar

## Bəxtiyar Məmmədov: "Deyin görüm, dövlət əmlakını oğurlamaq qanunazidd deyilmi?"

"Müdafiə naziri general-polkovnik Zakir Həsənovu hədəf götürüblər. Bu adamlar nazirin apardığı islahatları, korrupsiyaya, məmur özbaşınalığına qarşı qərarları, kadrların düzgün təyinatına hesablanan addımları görmək istəmirlər. Şahin Sultanov bildirir ki, guya ki, aparılmış islahatlar təəssüfedicidir. Yəni qanun pozuntuları ilə başlanıb, sonda isə HDQ-nin dağıdılmasına və kadr potensialının məhv olunmasına gətirib çıxarıb.

Bildirirəm ki, Şahin Sultanov HDQ-nin komandanı olduğu 14 il ərzində istəyindən də artıq dövlət əmlakını və HDQ-ni bütün növləri üzrə dağıtmış, hazırda həbsdə olan mafioz dəstəsi ilə mütəmadi cinayət əməllərini həyata keçirib. Sultanov peşəkar kadr kimi özünü millətə sırımasın. Birincisi, əsl kadr öz peşəsinə sadiqliyi, xidməti fəaliyyəti ilə yanaşı dövlət əmlakını göz bəbəyi qorumağı özünə borc bilməli idi. Əgər Şahin Sultanov mafioz qrupunu, yaratdığı cinayət dəstəsini, hazırda həbsdə olan əlbir olduğu şəxsləri kadr hesab edirsə, bunun adı başqadır. Şahin Sultanov mafiya babası olaraq sona qədər öz oğru dəstəsini qorumaq arzusu ilə yaşayır.

O, məktubunda Azərbaycan Respublikası Təhlükəsizlik Strategiyasının müəllifi olduğunu bildirir. Mən Şahin Sultanovun Azərbaycan Respublikasının dövlət əmlakının bu qədər külli miqdarda mənimsəyən analoqu olmayan saxtakar, oğru qrupunun müəllifi olduğunu bildirirəm. Şahin Sultanovun təşkilatçılığı və rəhbərliyi ilə törədilmiş təkzibolunmaz cinayət faktlarının öz sübut və dəlillərimlə istənilən vaxt təqdim etməyə hazıram. Şahin Sultanov bildirir ki, onu şər-böhtan və sifariş əsasında həbs ediblər. Onu necə sifarişlə həbs ediblər ki, artıq onun barəsində 17 iyul 2014-cü il tarixdə barəsində Bakı Hərbi Məhkəməsi tərəfindən yenidən 3 ay həbs-qətimkan tədbiri seçilib. Şahin Sultanov məktubunda Hərbi Prokurorluqla dostluq münasibəti qurmaq imkanına malik olduğunu göstərir. Başa düşmür ki, bu qurum cinayətkarlığa və hər bir nöqsana nəzarət edən ali orqandır. Bəyəm prokurorluq təmiz fəaliyyətlə məşğul olan adam tapmır ki, dostluq etsin? Gərəkdir ki, haram çörək qazanan, dövlət əmlakını oğurlayan şəxslə dostluq etsin? Sonda da isə sizin kimi rüsvay olsun? Qaldı MTN-in fəaliyyətinə kölgə salmağınıza, unutmayın ki, MTN atdığı addımı sizinlə və heç kimlə məsləhətləşmir. İstənilən vaxtda, istənilən məlumatı sabiq müdafiə naziri Səfər Əbiyevə çatdırıb. Lakin oğurlanmış pulları Səfər Əbiyevin himayədarlığı ilə mənimsəməyinizdən irəli gələrək 14 il dövlət əmlakını talamağa nail olmusunuz".




**B.Məmmədov müdafiə nazirinin Ş.Sultanovu qəbul etməməsinin səbəbi haqda isə bunları yazır:** "Şahin Sultanov cənab nazir Zakir Həsənovla HDQ-nin yeni tikilən bazasındakı görüş zamanı fürsətdən istifadə edib qəbuluna düşməsini xahiş etdiyini bildirir. Başa düşmür ki, sözügedən bu HDQ-nin yeni bazası olan tikinti obyektində açıq şəkildə nəzəri cəlb edən tikinti materiallarından istifadə olunması və digər korrupsiya hallarının mövcud olmasından xəbərdar olan Zakir Həsənov hansı əsasa sizi qəbul etməli idi? Yadınıza salıram ki, HDQ-nin yeni tikilən bazasının keyfiyyətsiz və ucuz tikinti materialları ilə inşa edilməsi səbəbindən sizin yarıtmaz, tamahkar fəaliyyətinizdən irəli gələrək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 96 il dönümü münasibətilə nəzərdə tutulmuş həmin bazanın açılışı qeyri-müəyyən vaxta təxirə salındı. Halbuki bu HDQ-yə məxsus yeni tikilmiş bazanın açılışında ölkə başçısının iştirakı da nəzərdə tutulmuşdu! Budurmu sizin vətənə 40 illik xidmətiniz? Bir daha bildirirəm ki, siz 1959-cu ildə anadan olmusunuz. Necə ola bilər ki, vətənə 40 il xidmət edəsiniz?"

**Hüquq müdafiəçisi Ş.Sultanovun Qarabağ müharibəsi veteranı olması haqda məlumatın da doğru olmadığını yazır:** "Bu barədə əlimdə real faktlar olduğunu nəzərinizə çatdırmışdım. Can-başla xidmət edən vitse-admiralın oğlunun birinin adını Sumqayıt şəhərində yerləşən N saylı hərbi hissəyə yazsaxta yaratdığınız MMC-lərin sənədlərini it-bata salmaqla qanunu pozmaq deyilmi? Məktubunuzda Əmək Məcəlləsinə istinad edirsiniz. Əmək Məcəlləsini pozan, işçilərin hüquqlarını pozan və 28 hərbiçi ailəsinin yaşayış hüquqlarını pozaraq küçələrə atan, hazırda kirayələrdə qalmaqlarına rəvac verən siz deyilsinizmi? Sonda bu yolla 2 milyon manatı mənimsəyən siz deyilsinizmi? Sizin kimi korrupsioner, rüşvətxor, qanun pozan ikinci bir məmurun bu günə qədər Azərbaycan tarixində olmasından hələ ki xəbərsizəm. Qaldı sizə müxtəlif dövrlərdə, ali rütbələr və orden, medallar almağınıza bildirirəm ki, oğurladığınız milyon manatları himayədarınız olmuş sabiq müdafiə naziri S.Əbiyevlə bölüşdüyünüzdən irəli gələrək öz növbəsində tərtib etdiyi saxta layiq olmadığınız siyahılara adlarınızı saldırmaqla, dolayı yolla layiq olmadığınız mükafatlara sahib olmusunuz. Qaldı sizin Heydər Əliyevin yetirməsi olmağınız fikdırmaqla, bütün gününü Bakının küçələrində keçirməsi, digər oğlunun isə bu günə qədər heç bir əsas və səbəb olmadan hərbi xidmətə getmək əvəzinə yalandan məhdudiyyət əldə edərək, hərbi xidmətdən yayınmaz.

Barənizdə cənab prezidentə düzgün məruzənin edilməməsinə gəldikdə, bir daha sizə və vəkiliniz Adəm Məmmədova xatırladıram ki, 2014-cü ilin iyun-iyul ayları ərzində tərəfimdən törətdiyiniz və rəhbərlik etdiyiniz 28 cinayət faktlarını ictimailəşdirmişəm. Bu günə qədər isə açıqladığım həmin 28 cinayət faktlarının heç birinə belə təkzib də verməmisiniz. Məktubunuz da açıq şəkildə pozulmuş hüquqlarınıza istinad edirsiniz. Əgər qanunları bu qədər yaxşı bilirsizsə və hörmətlə yanaşırsızsa, deyin görüm oğurladığınız dövlət əmlakı qanuna, zidd deyilmi? Həmin tərtib etdiyiniz və sənədləşdirdiyiniz, sonradan isə izi itirmək məqsədilə sənədləri, saxta aktları, rinizə, daha doğrusu, Məlikməmməd nağılınızı vəkiliniz A.Məmmədova söyləsəniz daha yaxşı olar. Məktubunuzda Hərbi Prokurorluğun HDQ-nin zabitlərinə təzyiqlər etməsini bildirirsiniz. Nə tez unutdunuz ki, kadr zabitləri hədə-qorxu gəlməklə istədiyiniz an alçaltmaqla, sonda isə döyüş bölgələrinə göndərmək hədəsi ilə rüşvət almağınızı, verilən rütbələrə görə tabeçiliyində olan işçilərdən pul almağınızı indi incitmək hesab etmirsiniz. Sonda HDQ-yə məxsus Mərdəkanda yerləşən istirahət müəssisəsindən məzuniyyət dövrünüzdə açıq şəkildə mühafizəçiyə təzyiq etmək yolu ilə 200 ədəd dekorativ ağacların və qızılgül kollarının oğurlanmağınız sizin bir daha kim olmağınıza sübutdur".

**Hüquq müdafiəçisi yaxın günlərdə mətbuat konfransı keçirəcəyini və əlində olan bir çox faktları da açıqlayacağını yazıb.**

❑ **E.HÜSEYNOV**

# 2 ton 790 kiloqram heroinlə bağlı yeni xəbər

## BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Ofisi Azərbaycanda narkotiklərə qarşı mübarizənin zəif aparıldığından narahat olub

**Gürcüstan Daxili İşlər Nazirliyinin keçirdiyi antiheroin əməliyyatı haqda yeni xəbər var. Gürcüstan DİN-in əməkdaşları iyulun 11-də Azərbaycandan gələrək Türkiyəyə gedən yük avtomobilində 2 ton 795 kiloqram maye heroin aşkar edib. Hadisə ilə bağlı iki Gürcüstan vətəndaşı həbs edilib.**



Bu əməliyyat barədə beynəlxalq media da məlumat yayıb və əsas diqqət 3 tona yaxın narkotik maddənin Azərbaycandan necə keçməsidir. Azərbaycan tərəfi də hələ ki buna aydınlıq gətirməyib. "Azadlıq" qəzeti yazır ki, hakimiyyət sadəcə məsələni ört-basdır etməyə bir neçə uğursuz cəhd edib: "Bu da təbii ki, beynəlxalq aləmin məsələyə diqqətini daha da artırıb. Artıq bu işin araşdırılmasında Cənubi Qafqaz regionunda təhlükəsizliyə maraqlı olan bir çox dövlətlərin birgə əməliyyat-araşdırma qrupu iştirak edir. Məlumat aldıq ki, BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Ofisi (UNODC) Azərbaycanda narkotiklərə qarşı mübarizənin zəif aparıldığından narahat olub. Bu narahatlıq qurumun nümayəndələrinin Bakıya gəlməsi və Dövlət Gömrük Komitəsində (DGK) görüş keçirilməsi ilə nəticələnib. UNODC-nin icraçı direktorunun kabinet rəhbəri Roberto Arbitrionun rəhbərlik etdiyi nümayəndə heyətini DGK sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev qəbul edib. İddialara görə, görüşdə qurumun narahatlığı diqqətə çatdırılıb. Qarşı tərəf isə narkotiklərə qarşı ciddi iş aparıldığını iddia edib. Maraqlıdır ki, UNODC-nin nümayəndələri iyulun 9-da DGK-da görüş keçiriblər. Bundan 2 gün sonra Gürcüstan DIN məlum əməliyyatı keçirib.

Bəzi məlumatlara görə, BMT-nin nümayəndələrində "3 ton heroin" və onun Azərbaycanla əlaqəli olması barədə hansısa məlumatlar olub. Qarşı tərəf bunu qətiyyətlə təkzib edib. Bu təkzibin ömrü isə iki gün çəkib..."

Xatırladaq ki, Azərbaycanın hüquq-mühafizə, gömrük və sərhəd xidməti orqanları maye halında olan, 93 ədəd 30 litrlik çəlləyə doldurulmuş heroinin sərhəddən necə keçdiyinə hələ də aydınlıq gətirməyib. Gürcüstan daxili işlər nazirinin açıqlamasından məlum olur ki, "qara bazar"da dəyəri təxminən 170 milyon dollar olan əfqan mənşəli heroinin ələ keçirilməsi üçün qurulan əməliyyat planında Azərbaycan da iştirak edib və narkotik maddə sərhəddən məhz bu əməliyyat planı çərçivəsində, yeni məqsədli və planlı şəkildə buraxılıb.

**Mövzunu diqqətdə saxlayacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**
**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# "Bizi prezidentdən gizlətdilər"

## "Sabunçulu Robinzon": "İcra başçısı qışqırdı ki, nə "qanunbazlıq" salmısan"

**"Üstümüzə 10-15 polis düşdü. Bizi zorla maşına basıb polis şöbəsinə apardılar. Prezident olimpiya stadionun tikintisi ilə maraqlanmağa gəlmişdi. Qorxurdular ki, çıxıb səs-küy salarıq. Amma qətiyyən elə bir niyyətimiz yox idi. İcra başçısı göstəriş verdi, polislər də bizi evimizdən çölə atdılar". Bu sözlərin müəllifi evinin sökülməsinə görə ədalətli kompensasiya tələb edən Ələkbər Hüseynovdur.**

İyulun 24-də prezident İlham Əliyev Avropa Yay Oyunlarının keçiriləcəyi stadionda aparılan tikinti işləri ilə maraqlanmaq üçün ərazidə olarkən Hüseynovlar ailəsi polis zorakılığına məruz qalıb. Evinin sökülməsinə görə ədalətli kompensasiya tələbi ilə direniş göstərən və "Sabunçulu Robinzon" kimi tanınan Ələkbər Hüseynov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bir gün öncəsindən evini dəmir hasara alıblar ki, prezident yoldan keçərkən onların evini görməsin.

### "Bizi dəmir qəfəsə saldılar"

**Ə.Hüseynov deyir ki, iyulun 24-ü səhər saat 5-ə kimi Sabunçu Rayon İcra Hakimiyyətinin işçiləri yaşadığı evi dəmir hasara alıb:** "Səs-küydən yata bilmədik. Çıxdım ki, nə olub? Biz neyləmişik ki? Əvvəl dedilər ki, ərazinin yaxşı görünməsi üçün hasar çəkirlər. Daha sonra öyrəndim ki, evimi prezident gələcək deyə gizlətməyə çalışırlar. Səhər tezdən qapını açanda gördüm ki, 15-ə yaxın polis qapımın ağzını kəsdirib. Mənə dedilər ki, burda dövlət tədbiri olacaq, prezident gələcək. Polislər mənə dedilər ki, xahiş edirik çölə çıxmayın, səs-küy salmayın, tədbiri yola verək. Mən də onlarla razılaşdım. Çay təklif elədim, hətta dedim ki, narahat olmayın, çölə çıxmayacağıq. Az sonra qapı yenidən döyüldü. Bu dəfə gələn Sabunçunun icra başçısı Adil Vəliyev idi. Onu içəri dəvət etdim. Mənimlə elə söhbət elədi ki, guya mənim neçə aydır burda qaldığımı bilmir. Göstəriş verdi ki, bunları atın bayıra, yox eləyin, heç kim görməsin. Polislərdən biri dedi ki, sakit oturublar, lazım gəlsə 5-6 polis də qoyarıq qalar bunlarla. Adil Vəliyev razılaşmadı, olduqca ağır və əsəbi tonda göstəriş verdi ki, bizi burdan aparsınlar".

### "Polislər mənə xəsarət yetirdilər"

**Ə.Hüseynov deyir ki, polislər onları evdən çölə çıxararkən bir müddət əvvəl evi sökülən qonşuları Güləndam Hüseynova da onlarla olub. Qonşusu da polis zorakılığına məruz qalıb:** "İcra başçısının göstərişindən sonra polislər evimə doluşdu. Başladılar bizi zorla çölə çıxarmağa. Sakitcə dedim ki, bura mənim evimdir, mülkümdür. Sizin mənim evimə basqın etməyinizə və məni zorla harasa aparmağınıza qanun icazə vermir. İcra başçısı qışqırdı ki, nə qanunbazlıq salmısan. Polislər yenə də göstəriş verdi. Onlar mənim qolumu burub maşına mindirdi. Bu zaman alın və göz nahiyəmdən xəsarət aldım. Məni sürüyə-sürüyə aparırdılar. Telefonu aldılar ki, kiməsə xəbər verməyək. Polis rəisinin göstərişi ilə mənə yenidən fiziki təzyiq göstərdilər. Məni 13-cü polis bölməsinə, yoldaşımı, uşaqları və qonşumu da icra nümayəndəliyinə apardılar".

### "Dedilər səni Müsavat Partiyası idarə edir"

**Ə.Hüseynov bildirdi ki, polis bölməsində onu təhqir edərək, zorakılıq göstəriblər:** "Bölmədə olarkən mənə dedilər ki, sən kuklasan, səni idarə edirlər. Sonra başladılar məni nalayiq sözlərlə təhqir etməyə. Bildim ki, cavab qaytarsam onlar bundan istifadə edəcək. Səbirlə danışaraq dedim ki, məni təhqir etməyin. Mən haqqımı tələb edirəm. Dedilər, səni Müsavat Partiyası idarə edir. Dedim, baxın geyindiyim köynəyə, üstündə "İlhamla İrəli" yazılıb. Mən prezidentimə səs vermişəm. Başladılar ki, bu sözləri özünüzə saxlayın, boş-boş sözlərdir. Boynuma zorla qoymaq istədilər ki, guya mən polisə əl qaldırmışam. Üzümün qanını, gözümü göstərib dedim ki, baxın, mən yox, sizin işçiniz mənə zor tətbiq edib. Mən bölmədə olarkən polislərə bildirdim ki, sökün-tü-tikinti işləri insanların sosial rifahının yüksəldilməsinə xidmət etməlidir. Prezidentin özü də bunu dəfələrlə deyib. Hətta Abid Şərifov sonuncu dəfə də bildirdi ki, 10 ilin, 40 ilin evini sənədsiz deyə qeydə almaq biabırçılıqdır. Mənim adımdan ifadə yazıb məcbur etdilər ki, ifadəni imzalayım. Daha sonra özüm ifadəmi yazdım, amma bununla da razılaşmadılar. Məni məhkəməyə apardılar. Məhkəmədə hakimə də olanları dedim. Ac-susuz neçə saat gözlədim. Məhkəmə mənim barəmdə xəbərdarlıq qərarı verdi. Polislər məni gətirib evimə qoydular. Prezidentin tədbiri bitmişdi. 2-3 saat sonra da, dəmir hasarları sökdülər".









Xatırladaq ki, Hüseynovlar ailəsi evlərinin sökülməsinin müqabilində onlara verilən kompensasiyanın məbləği ilə razılaşmır. "Dərnəgül yolu" kimi tanınan Ziya Bünyadov prospektindəki 12 saylı evdə *(rəsmi ünvanları isə belədir: Böyükşor qəsəbəsi, 12)* yaşayan Hüseynovlar ailəsi stadionun tikintisi ilə bağlı bütün qonşularının köçməsinə rəğmən heç yerə getməyəcəklərini deyirlər. Onlar bir ildən çoxdur ki, qaz, işıq və susuz qalıblar və ədalətli kompensasiya üçün Sabunçu RİH-lə mübahisə və mübarizədədirlər.

Hüseynovlar ailəsi evlərinin sahəsinin düzgün hesablanmadığını, onlara çatacaq kompensasiyanın az olduğunu deyir və 40 ildən artıqdır yaşadıqları sənədli evlərinin qanunsuz şəkildə sökülməsi cəhdinə etiraz edir. Hüseynovların evi RİH tərəfindən 53 kv.metr hesablanıb. Buna görə ailənin bank hesabına 63534 manat vəsait köçürülüb. Hüseynovlar isə bu məbləğlə razı deyil. Onlar hesab edir ki, evin sahəsi daha böyükdür. Ailə evinin dəyərinin 250 min manat olduğunu bəyan edir.

❑ **Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**

**Elan**

**Şamaxı şossesi, MEXKALON -23-də 140 kv metr, hamam tualeti içəridə olan 2 otaq və zalı, mətbəx mebeli, qarajla birlikdə kupçalı və təmirli ev satılır.**
**Qiyməti razılaşma yolu ilə.**
**Əlaqə telefonu: 055 - 211-78-41**






# Bakıya bənzəməyən Batumi...

## Batumidə heç kəs sizdən giriş üçün pul almayacaq, həmçinin yol kənarıdır deyə 40 qəpiklik suya görə sizdən heç kəs 1 manat istəməyəcək...













**Yay gəldisə hər kəsin ağlına istirahət, dəniz, əyləncə gəlir. Dincəlmək arzusunda olub, amma dincələ bilməyənlər də az deyil. Buna səbəb isə çoxdur... "Yay istirahətini harada keçirməli" sualı üzərində baş sındıran sadə Azərbaycan vətəndaşları indi nə qədər təəccüblü olsa da, xarici ölkələrə üz tutmağa üstünlük verirlər. Səbəb sadədir: Azərbaycanda turizmin az da olsa inkişaf etmiş bölgələrində bir neçə günlük tətilin qiyməti, qonşu ölkələrdə olan 1 həftəlik istirahətdən daha bahadır. Buna görə də istirahət üçün qonşu ölkələrə üz tutanların sayı ilbəil daha da artır.**

Tətil üçün ən sərfəli ölkələrdən biri də qonşu Gürcüstanın Batumi şəhəridir.

Yalanı yoxdur, Bakıdan Batumiyə getmək, paytaxtdan Nabrana getməkdən daha sərfəlidir. Batumidə heç kəs sizdən giriş üçün pul almayacaq. Həmçinin yol kənarıdır deyə 40 qəpiklik suya görə sizdən heç kəs 1 manat istəməyəcək. Turist olduğunuzu görüb sizə ikiqat qiymət "oxumayacaqlar".

İlk öncə Qara dəniz sahilində yerləşən Batumi haqqında. Batumi şəhəri Acarıstan Muxtar Respublikasının paytaxtıdır. Acarıstan Gürcüstanın cənub-qərbində yerləşir və Türkiyə ilə həmsərhəddir. Əhalisinin əksəriyyətini gürcü müsəlmanları olan acarlar təşkil edir. Batumi limanı regiondakı iri transmilli layihələrin, o cümlədən Avropa-Asiya nəqliyyat dəhlizinin əsas qovşaqlarından biridir.

1991-ci ildən muxtar respublikaya rəhbərlik edən və "Acarıstan aslanı" kimi ad çıxaran Aslan Abaşidze *(Abaşidzelərin Acarıstandakı hakimiyyətinin kökləri 6 əsr öncəyə, 15-ci əsrin ortalarına gedib çıxır-müəllif)* belə mürəkkəb etnik strukturu olan bölgənin 2004-cü ilədək rəhbəri olub. 1991-1992-ci illərdə Gürcüstanda başlanan müharibə və münaqişələr Acarıstandan yan keçib.

Batumi Bakıdan heç də böyük, gözəl, tarixi yerləri bol olan bir şəhər deyil. Amma daha ucuzdur, səliqəlidir, təmizdir, bir turist üçün hər şeyi əlçatan və pulyetən olan şəhərdir. Çimərlikləri hasarlanmış vəziyyətdə deyil. Dənizə girmək üçün də heç kəsə 5-10 manat pul verməyə ehtiyac yoxdur. Gecəyarı çıxıb şəhərdə rahat gəzmək təhlükəsizdir. Polislər də sizə şübhəli şəkildə yaxınlaşmayacaq və sizdən sənəd tələb etməyəcək. Ümumiyyətlə, Batumi əsəbləri sakitləşdirmək və dincəlmək üçün ideal şəhərdir.

Cibinizdə 300 manat varsa, burada 1 həftə ərzində mükəmməl şəkildə istirahət edə bilərsiniz. Hotellərin qiyməti 40-50 laridən başlayır. Manatla hesablasaq 20-25 manat edir ki, bu da çox sərfəlidir. İstədiyiniz restoranda rahatca əyləşib doyunca yemək yeyə bilərsiniz. Çünki qiymətlər çox ucuzdur. Küçələrin təmizliyinə isə söz ola bilməz. Gün ərzində bir neçə dəfə küçələr süpürülür və təmizlənir.

Dövlət hər kəsi nəzərə alıb. Gözdən əlil insanlar üçün bütün küçələrdə xüsusi yer örtükləri döşənilib. Həmin örtüklər tək sıra şəkildə düzülüb və digər yer örtüklərindən fərqlənir. Bu da gözdən əlil insanların hərəkəti üçün çox əlverişli şərait yaradır.



Velosiped həvəskarları da diqqətdən kənarda qalmayıb. Onlar üçün də xüsusi yol ayrılıb. Velosiped yollarını həm şəhərin bütün küçələrində, həm də sahil boyunca görmək mümkündür.

Şəhərin içində gül bazarı yerləşir. Burada təbii güllər satılır. Yerli sakinlər hər şeydən pul qazanmağı bacarırlar. Əsasən uşaq vaxtlarımızda tonqal zamanı yandırdığımız qamışları burada bir ədədi 1 lariyə satırlar.

Batumidə alış-veriş etmək üçün ən böyük bazar Hopa bazarıdır. Bu bazarda olarkən özümüzü yad yerdə hiss etmədik. Çünki ticarət mərkəzlərinə çox oxşayırdı. Qiymətlər isə Bakıdakından bir az daha ucuzdur.

Qara dəniz sahilləri çox təmizdir. Nə sudan kanalizasiya iyi gəlir, nə də dəniz kənarında qarpız qabıqları var. Dənizə girmək üçün bir az əziyyət çəkməli olacaqsınız. Çünki həm çox dərindir, həm də xırda dəniz daşları ayağınızı bir az əzəcək. Dəniz kənarında uzanmaq üçün isti qum da tapmayacaqsınız. Amma təmiz suyu olan Qara dənizdə sərinləmək üçün bu xırda əziyyətə dəyər...

Küçə alverinə və küçə musiqiçilərinə heç bir qadağa yoxdur. Bakıda olduğu kimi, polis nə küçədə alver edən insanların mallarını ayaqları ilə dağıdır, nə musiqiçiləri küçədən-küçəyə qovur.

Şəhərdə həm kilsə, həm də məscid var. Yerli sakinlərin böyük hissəsi müsəlmanlardan ibarətdir. İnsanlar gələrək rahat şəkildə öz ibadətlərini edirlər.

Şəhərdə olan avtobuslar bir az fərqlənir. İstənilən sərnişin pəncərə tərəfdə oturaraq rahat şəkildə siqaret çəkə bilir. Ödəmə də fərqlidir. Sərnişin ya kartla, ya da biletlə ödəmə etməlidir. Oxşar cəhət isə oturacaqların arxasına, avtobusun divarlarına yazılan yazılardır. Burada da oturacaqların arxasında bizim avtobuslardakı kimi yazılar və çat elanlarına rast gəlmək mümkündür.

Dilənçilər bu şəhərdə də var. Dilənçilərin böyük hissəsi gürcülər deyil, əsasən qaraçılar və moldovanlardır.

Şəhərdə tarixi muzey fəaliyyət göstərir. Muzeydə əsasən yerli rəssamların əl işləri sərgilənir. Şəhərin polisləri də fərqlidir. Onlara yaxınlaşaraq bir az söhbət etmək imkanımız oldu. Normal münasibət bəslədilər.

Batumidə ən çox bəyəndiyimiz şeylərdən biri də yaşıllıqla bol olmasıdır. Yaşıllıqlar çox yaxşı qorunur.

Şəhərin bir neçə küçəsində dayanacaq üçün yerlər ayrılıb. Sürücülər çox rahat şəkildə öz avtomobillərini dayanacaqda saxlaya bilirlər ki, bu səbəbdən heç bir küçədə tıxac yaranmır.

Şəhərin mərkəzində möhtəşəm bir göl var. Bu gölün mənzərəsi belə istirahətiniz üçün yetərli ola bilər. Hətta bu göldə balıq da tuta bilərsiniz.

Amma hər şey mükəmməl deyil. Restoranlarda turistləri nəzərə almırlar. Hesab gətirdikləri zaman yeməklərin adı gürcü dilində yazıldığı üçün turistlər narazı qalır. Hər restoranda xidmət yaxşı olmur. Restoranda xidmət göstərənlərin böyük əksəriyyəti gürcü dilindən başqa dil bilmirlər. Bu da müəyyən problemlər yaradır.

Seçkilərdən qalan elanlar hələ də divarlardadır. Və bu heç də yaxşı görünmür.

Batumidən qayıdarkən Tiflisdə bir həmyerlimizlə tanış olduq. Tiflis küçələrindən birində parkinq işçisi vəzifəsində çalışırdı. Söhbətimiz zamanı bizə bildirdi ki, uzun zamandır burada çalışır. **"Azərbaycanlılar bura çox gəlir. Səbəbi də məlumdur. Burada istirahət etmək daha sərfəlidir. Mən də qarşılaşdığım azərbaycanlılara köməklik edirəm. Ev və hotel tapmaqda onlara yardımçı oluram" deyir həmyerlimiz...**

**Bakıya doğru qayıdanda yolda bir restoranın önündə dayandıq. 40 qəpiklik suyu 1 manata aldıqdan sonra anladım ki, artıq Azərbaycandayıq....**

❑ **Məhəmməd TÜRKMƏN**
**Gürcüstan, Batumi**











# YENİ MÜSAVAT

## Son səhifə

N 189 (5898) 26 iyul 2014




## Obama doğuşa gedən qadına mane oldu

İyulun 24-də Los Ancelesdə prezident Barak Obamanın kortecinə görə yolların bağlanması 9 aylıq hamilə qadının xəstəxanaya çatdırılmasına mane olub. Hadisə barədə məlumat sosial şəbəkədə yayıldığı andan Amerika ictimaiyyətinin qınağını qazanıb. Məlum olub ki, hamiləliyinin son günlərini yaşayan, adı açıqlanmayan qadın sancıları başladığı üçün evinin yaxınlığında yerləşən Cedars-Sinai adlı tibb məntəqəsinə ayaqla gedib. Onunla birgə iki tibb bacısı da olub. Amma polisin bağladığı yolu nə qadın, nə də tibb bacıları keçə bilib. Onlar yarım saat prezident kortecinin keçməsini dayanacaq yaxınlığındakı skamyada gözləyiblər. Hadisəni müşahidə edən şəhər sakinlərindən biri bu haqda twitter sosial şəbəkəsində məlumat yayıb. Təcili yibbi yardım maşını hadisə yerinə gələndə artıq yollar da açılıbmış. Ağ Ev baş vermiş insidentə görə Los Anceles polisini ittiham edib. Xatırladaq ki, hadisə Obamanın Demokratik Partiyaya dəstək məqsədilə 3 günlük Los Anceles səfəri zamanı baş verib.

## Ruslar Türkiyəni almanların "əlindən aldı"

**2014-cü ildə Türkiyəyə daha çox Rusiyadan turist gəlib. Lenta.ru saytının xəbərinə görə, bu barədə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyindən bildirilib. İlin əvvəlindən ölkəyə 1 milyon 920 min rus gəlib. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə 13.49 faiz daha çoxdur. İlin ilk yarım ilində ölkəyə ümumən 15.2 milyon turist gəlib. Halbuki 2013-cü ilin ilk yarım ildəki rəqəm ondan 4.73 faiz az idi.**




Turistlərin sayına görə Almaniya ikinci yeri tutur. Alman turistlər ruslardan 20 min nəfər daha azdırlar - 1.9 milyon nəfər. Onları daha sonra britaniyalılar, gürcülər və bolqarlar təqib edir. Nazirliyin rəqəmlərinə görə, ukraynalıların gəliş sayı azalıb, cəmi 299 min nəfər təşkil edir. Turistlər daha çox iyun ayında ölkəyə gəlib ki, bu da 4.3 milyon nəfər təşkil edir. Yanvarda isə bu rəqəm 1.1 milyon idi.

## Sevgilisi ilə dalaşmamaq üçün özünü maşından atdı

ABŞ-ın Vaşinqton ştatındakı Fayf şəhər sakini öz sevgilisi ilə mübahisəni davam etdirməmək üçün hərəkət edən maşından hoppanıb. Bu barədə lenta.ru saytı "KomoNews"a istinadən xəbər verib. Maşını sürən qız polis tərəfindən saxlanılıb. Məlum olub ki, adı açıqlanmayan qız sürücü 33 yaşlı sevgilisi Elis Fenli ilə üstüaçıq maşında gedərkən ona ayrılmaq istədiyini deyib. Bu qərarla razılaşmayan və münasibətləri barədə danışmaq istəməyən oğlan isə etiraz əlaməti olaraq maşın hərəkətdə ikən qapını açaraq özünü yerə atıb. Fenli ilə 9 aydır sevgili olduğunu deyən qız isə sevgilisinin özünü atdığı tərəfin qapısını bağlayaraq yoluna davam edib. Olayı müşahidə edən polislər sürücüyə xəbərdarlıq edərək maşını saxlamağı tapşırıblar. Əsəbi sürücü buna məhəl qoymayanda bu dəfə özünü maşından atan sevgilisi qaçaraq maşına çatmağa və yenidən içəri girməyə cəhd edib. Maşına girən gənc sevgilisindən onu saxlamağı tələb edib. Polis qadın sürücünü maşından zorla çıxarıb.





## 60 dollara kişiləri qucaqlayır

Türkiyənin "Hürriyet" qəzeti insanları qucaqlayaraq pul qazanan Samanta Hess barədə yazıb. Bu fikir Hessin ağlına 2012-ci ildə gəlib. Oxuduğu jurnalda bir nəfərin adamlara "pulsuz qucaqlama xidməti" göstərdiyini oxuyub. "Business İnsider"in xəbərinə görə, Hess bu məqaləni oxuduğu dönəmlərdə psixoloji olaraq çətin günlər keçirirmiş. Yeni bir münasibətə hazır olmamasına baxmayaraq, qucaqlaşmağa ehtiyacı var imiş. Hess bunun ardınca Cuddle Up To Me (cuddleupto-me.com) adlı bir internet saytı yaradıb və burada da verdiyi xidmətlərdən danışıb. 60 dollar qarşılığında arzulayan adamları qucaqlayan Samanta Hess bildirib ki, bunun adı psixoloji müalicədir: "Qucaqladığım kişilərin 90 faizi 20 yaşdan böyükdür. Müştərilərimin çoxu daha öncə keçirdikləri psixoloji travmaya görə heç kimə toxunmaq istəmirlər. Bunun adı psixoloji müalicədir".




**QOÇ** - Qarşınızda duran bu təqvimi istirahətə, qonaqlıqlara həsr edin. Çünki bu amil ovqatınızı yüksəldə bilər. Bacardığınız qədər fəaliyyətə az yer ayırın. Qida rasionunuza xüsusi fikir verin.

**BUĞA** - Günün birinci yarısında diqqətli və tədbirli olmağınız vacibdir. Əks təqdirdə, əsəbləriniz tarıma çəkiləcək. Sonrakı müddətdə isə qəlbinizə yaxın olanlar sizi sevindirəcək.

**ƏKİZLƏR** - Əlamətdar gün hesab etmək olar. Təxminən saat 12-dən başlayaraq prosеslər xeyrinizə cərəyan edəcək. İstər fəaliyyət zəminində, istərsə də maddi məsələlərdə hər şey xeyrinizə olacaq.

**XƏRÇƏNG** - Təzadlı və riskli gündür. Lakin narahat olmağa dəyməz. Çünki Göy qübbəsi maraqlı sövdələşmələrdə iştirakınızdan xəbər verir. Amma nəzərə alın ki, səhər saat 08:31-dən mənfi enerjili Ay bürcünüzdədir.

**ŞİR** - Həmkarlarınızla aranızda gərginlik baş qaldırsa da, şəxsi münasibətlərdə, xüsusən də ailə-sevgi əlaqələrində vəziyyət xeyrinizə olacaq. Deməli, seçim məsələsində diqqətli olmalısınız.

**QIZ** - Həddindən ziyadə anlaşılmaz gündür. Ulduzların nəzarətindən çıxdığınızdan hər cür xoşagəlməzlik mümkündür. Ona görə də səhhətdən tutmuş fəaliyyətə qədər bütün sahələrdə qorunmalısınız.

**TƏRƏZİ** - Riskli gündür. Buna görə də gözünüzü yumub irəli getməməli, ən xırda detalları belə yüz yol ölçüb-biçməlisiniz. Səhhətinizlə bağlı problemləriniz də mümkündür.

**ƏQRƏB** - Müəyyən qədər gərginliklə rastlaşma ehtimalınız var. Ələlxüsus da iş yoldaşlarınızla qalmaqallarınız qaçılmazdır. Bacardığınız qədər hövsələli olun. Nüfuzlu adamlarla görüşləri təxirə salmayın.

**OXATAN** - Çalışın ki, ixtiyarınızda olan bu təqvimi daha çox hisslər üzərində qurasınız. Ailə-sevgi münasibətlərində, eləcə də işgüzar sövdələşmələrdə uğurlu gedişlər edə bilərsiniz.

**OĞLAQ** - Yaxşı olar ki, pulla bağlı bütün planlarınızı təxirə salasınız. Çünki ulduzların düzümü maliyyə uğursuzluğundan xəbər verir. Riskdən və günvurmadan da qorunmağınız məsləhətdir.

**SUTÖKƏN** - Ötən günlərdə rastlaşdığınız gərginlik və xoşagəlməz situasiyalar aradan qalxacaq. Odur ki, özünüzü bədhal göstərməyin. Qoy ətrafdakılar sizi nikbin görsün. Qonaq getmək də uğurludur.

**BALIQLAR** - Ulduzlar uğurlu məqamlar yaşayacağınızdan xəbər verir. Stress gətirən söhbət və mövzulardan uzaq olun. Saat 14-17 arası uğurlu əməkdaşlığınız və varlanacağınız mümkündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Evinə girən oğruları döydüyü üçün cərimələndi



Türkiyəli Hüseyn Düzbal 8 ay əvvəl qayınatasının evinə girən oğruları yaxaladığı üçün hələ də cərimə ödəyir. Belə ki, hadisə yerinə gedəndə orda 3 nəfər azyaşlı oğru görən Düzbal onlardan birini tuta bilib. 12 yaşlı kiçik oğruya bir daha bu hərəkəti təkrar etməməsini deyəndə sonuncu onun qarnından təpik vurub. H.Düzbal da qaçmağa çalışan oğrunu yenidən tutub və qulağından tutaraq, bir şapalaq vurub: "Ürəyim ağrıdığı üçün ondan polisə şikayət etmədim, həbsinə razı olmadım və sərbəst buraxdım. Amma aradan 2 ay keçəndən sonra bu oğrunun anası məni məhkəməyə verərək, cərimələnməyimi istədi. Oğluna şapalaq vurduğum üçün 2 min lira (təxminən 900 manat-red.) məbləğində cəzalandırıldım. Və mən indi bu pul cəzasını hər ay ödəyirəm. 5 ayını ödəmişəm, 5 ayı qalıb".

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 10.565

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.